# QARABAĞ AZƏRBAYCANDIR!



## Tək yumruq, tərs şillə!

8

# Səs

№ 227 (6668) 10 dekabr 2022-ci il. Qiymәti 60 qәpik

## Qәlәbәmizi dünyaya göstәrәn möhtәşәm - ZƏFƏR PARADI!



4

# Ya şәrtlәrlә razılaşmaq, ya da Bakının güc yolu tәtbiqi!

10



## Bakıda "Media savadlılığı" konfransı keçirilib



5

## Qanun pozuntusu: Yeniyetmәlәrә niyә siqaret satılır?



15

## "Ermәnilәr nә qәdәr müqavimәt göstәrsәlәr dә, sülh müqavilәsi imzalanacaq..."



10

## Braziliya "nağılı" bitdi Xorvatiya yarımfinalda!



## Tehran niyә narahatdır?




## Azәrbaycan Ordusunun döyüş taktikası Yaponiya mediasında




Azәrbaycan Silahlı Qüvvәlәrinin Vәtәn müharibәsindә tәtbiq etdiyi uğurlu döyüş taktikası vә müasir silahlardan istifadә bacarığı bütün dünya ilә yanaşı, Yaponiya mediasının...

5

# Vətəndaşların təhlükəsiz həyat və fəaliyyətinin təmin olunması əsas vəzifədir





***Dünən Prezident İlham Əliyev Fövqəladə Hallar Nazirliyi (FHN) tərəfindən alınmış və işğaldan azad olunmuş ərazilərdə istifadə ediləcək xüsusi təyinatlı texnikalar və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən alınmış müasir təcili tibbi yardım avtomobilləri ilə tanış olub. Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov dövlətimizin başçısına raport verdi.***










Prezident İlham Əliyevə məlumat verildi ki, işğaldan azad edilmiş ərazilərdə yanğından mühafizə üçün Fövqəladə Hallar Nazirliyi tərəfindən "KamAZ" markalı 100 yanğınsöndürən və "İveco" markalı 50 xüsusi təyinatlı yanğınsöndürən avtomobil alınıb. "İveco" markalı avtomobillərdən 9-u artıq idxal olunub, 41-nin idxalı isə 2023-cü ilin birinci rübündə nəzərdə tutulur.

Bildirildi ki, "KamAZ" və "İveco" markalı avtomobillərdən xüsusilə yanğın yerinə şəxsi heyətin, yanğın texniki və xilasedici avadanlıqların, suyun və köpükəmələgətirən maddələrin daşınması, yanğın yerinin fasiləsiz olaraq odsöndürücü maddələrlə təmin edilməsi, çoxmərtəbəli binalardan insanların təxliyəsi və əşyaların çıxarılması, xilasedici və yanğınsöndürənlərin yuxarı mərtəbələrə qaldırılması, lafet lüləsi vasitəsilə yüksəklikdə yanğınların söndürülməsi, yanğın yerinin işıqlandırılması, eyni zamanda, digər köməkçi işlərin görülməsi üçün istifadə olunacaq.

Diqqətə çatdırıldı ki, müxtəlif texnogen, təbii qəzalar və yol-nəqliyyat hadisələri zamanı xüsusi xilasetmə işlərinin aparılması, işğaldan azad edilmiş ərazilərdə yüklərin və köməkçi materialların daşınması üçün FHN tərəfindən "Nissan Patrol" markalı 5, "Lada Niva Travel" markalı 11 və "QAZEL" markalı 6 avtomobil (onlardan 3-ü idxal edilib, digərləri isə cari ilin sonunadək idxal olunacaq) alınıb.

Bildirildi ki, nazirlik tərəfindən alınan "GCS (Global Clearance Solutions) - 200" markalı, dizel mühərrikli, kənardan idarəedilən, müasir minatəmizləyən 4 robot işğaldan azad olunmuş rayonlarda piyada və tank əleyhinə minalarla çirklənmiş ərazilərin təmizlənməsi işlərində istifadə olunacaq. Təqdim edilən texnikalar arasında "Ural" markalı avtomobillər də var. Bu avtomobillərdən də yanğın hadisəsi zamanı yüklərin daşınması və digər işlərin həyata keçirilməsi üçün nəzərdə tutulub.

Sonra dövlətimizin başçısı İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən alınmış müasir təcili tibbi yardım avtomobillərinə baxıb.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev məlumat verdi ki, artan tələbatın və yeni yaradılmış tibb mərkəzlərinin, məntəqələrin, o cümlədən işğaldan azad olunmuş ərazilərimizdə inşa edilən xəstəxanaların təcili tibbi yardım avtomobilləri ilə təmin edilməsi diqqət mərkəzindədir.

Agentlik tərəfindən 2020-ci ildən indiyədək 84 ədəd "Fiat Doblo", 131 ədəd "Mercedes", 34 ədəd "Ford Transit" markasına aid olan ümumilikdə 249 təcili tibbi yardım avtomobili satın alınıb. Həmçinin xüsusi 2 diferensiallı (4x4) "Mercedes Vito" avtomobilləri dağlıq relyefdə və yolsuzluq şəraitində təcili tibbi yardım briqadasının rahat və təhlükəsiz hərəkətini təmin edir. Həmin avtomobillərdən 44 günlük Vətən müharibəsi zamanı çətin və yolsuzluq şəraitlərində yaralıların təxliyəsində istifadə olunub.

Bildirildi ki, Bakı şəhəri və respublikanın digər şəhər və rayonlarında fəaliyyət göstərən tibb müəssisələrinin, təcili və təxirəsalınmaz tibbi yardım məntəqələrinin ümumilikdə 1487 ədəd təcili tibbi yardım avtomobili ilə təmin edilməsi nəzərdə tutulub və indiyədək tibb müəssisələri 909 tibbi yardım avtomobili ilə təmin edilib.

Təqdim edilən "Mercedes-Benz" markalı təcili tibbi yardım avtomobillərinin 37-si sadə diferensiallı, 7-si xüsusi 2 diferensiallı, 20-si reanimobil və 1-i perinatal küvezli olmaqla, ümumilikdə 65 ədəddir. Avtomobillər xəstə tibb müəssisəsinə aparılarkən artıq yolda müalicəyə başlamağa imkan verən geniş çeşiddə dərmanlar və tibbi avadanlıqlar ilə təmin edilib. Belə ki, avtomobillərin komplektasiyası istənilən vəziyyətdə olan pasiyentlərin daşınmasına imkan verir.

Respublikamızda təbii və texnogen xarakterli fövqəladə halların vaxtında xəbərdar edilməsi, nəticələrinin çevik və səmərəli şəkildə aradan qaldırılması işinin vahid mərkəzdən idarə olunması məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin 2005-ci il 16 dekabr tarixli Sərəncamı ilə Fövqəladə Hallar Nazirliyi yaradıldı. Beləliklə, fəlakətlərlə mübarizə işinin təşkilinə dövlət səviyyəsində sistemli yanaşmada yeni bir mərhələnin əsası qoyuldu. Əhalinin mülki müdafiəsinin, yanğın təhlükəsizliyinin, su hövzələrində insanların təhlükəsizliyinin və xilasetmə işlərinin təşkili, ölkə ərazisində radioaktiv tullantıların zərərsizləşdirilməsi, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyə və tikintidə təhlükəsizliyə nəzarət kimi mühüm vəzifələri yerinə yetirən bir neçə dövlət qurumunun Fövqəladə Hallar Nazirliyinin tabeliyinə verilməsi əhalinin və ərazilərin fövqəladə hallardan daha etibarlı müdafiəsinin təmin olunması sahəsində mühüm rol oynadı.

Bir sözlə, ölkə rəhbərliyinin xüsusi diqqət və qayğısı nəticəsində Fövqəladə Hallar Nazirliyi maddi-texniki cəhətdən hərtərəfli şəkildə təmin edilmiş və qarşısına qoyulmuş məsuliyyətli vəzifələrin öhdəsindən uğurla gəlmək iqtidarında olan mobil bir quruma çevrildi.



# Heydər Əliyev dühası və qüdrətli Azərbaycan

***Azərbaycanda dövlət quruculuğu, iqtisadi dirçəliş, sosial-siyasi həyatda tərəqqi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Heydər Əliyev Azərbaycanı bir dövlət, xalqımızı isə bir millət kimi tarixin ağır və sərt sınaqlarından uğurla çıxardı. Ölkəmizi parçalanmaq təhlükəsindən xilas edən, respublikamızın inkişafına möhkəm zəmin yaradan Ulu Öndər Heydər Əliyevin siyasi kursu nəticəsində, Azərbaycan özünün müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi. Bütün ömrünü Azərbaycanın və xalqın taleyi ilə bağlayan Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaradaraq, onu böyük bəladan, dəhşətli fəlakətdən qurtardı.***

Ulu Öndər Heydər Əliyev hər zaman deyirdi ki, Azərbaycan mənim nəfəsim, həyatımdır. Doğma vətənim Azərbaycana bağlıyam. Heydər Əliyevin böyüklüyü Onun sözü ilə əməlinin birliyində idi. Ulu Öndər hər zaman çalışırdı ki, insanların istəklərini, arzularını reallaşdırsın. Düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanı dünya birliyinin fəal üzvünə çevirən, bugünkü uğurlarımız üçün möhkəm baza yaradan Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının tarxində böyük rolu vardır. Onun hər addımı ölkəmizin inkişaf tarixinə biri-birindən əhəmiyyətli uğur səhifələrini yazıb. Onun ideyaları hər bir azərbaycanlı üçün dəyərlidir. Böyük Şəxsiyyət bütün varlığı ilə sevdiyi Azərbaycanı, xalqını, onun dövlətçilik tarixini çox çətin sınaq və imtahanlardan çıxarıb. Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərlik etdiyi dövrdən etibarən, Azərbaycanın iqtisadi inkişafının əsaslarının yaradılması, zəngin iqtisadi potensialının ölkənin gələcək inkişafına və xalqın rifahının yüksəlməsinə yönəldilməsi prosesinə başlanılıb. Ulu Öndər Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə rəhbərlik etdiyi dövr ərzində respublikanı geridə qalmış və yalnız xammal mənbəyi sayılan aqrar respublikadan inkişaf etmiş sənaye respublikasına çevirməyə müvəffəq olub. Kənd təsərrüfatının və sənayenin, iqtisadiyyatın digər sahələrinin inkişafında, sosial məsələlərin həllində və əhalinin rifah halının yaxşılaşdırılmasında böyük irəliləyiş əldə edilib. O, dahiyanə uzaqgörənliklə, dərindən ölçüb-biçərək, ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırlandı və dərhal onların icrasına başlanıldı. Böyük Siyasətçi iqtisadiyyat, o cümlədən, kənd təsərrüfatı və mədəniyyətin müxtəlif sahələrində vətəninin, xalqının inkişafı üçün zəruri olan ən vacib məsələlər barədə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu, Mərkəzi Komitənin plenumları, Kommunist Partiyasının qurultayları səviyyəsində əlverişli qərarlar qəbul edilməsinə nail olur. Azərbaycanı özü-özünü təmin edə bilən, müstəqil yaşamağa qadir olan və elmi-texniki cəhətdən yüksək tərəqqi etmiş bir ölkəyə çevirmək yolunda qətiyyətli yorulmadan çalışırdı. Qısa bir zaman məsafəsində bütövlükdə, respublika ərazisində yüzlərlə zavod, fabrik və istehsalat sahələri yaradıldı. 213 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bu illərdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi.

## ”NƏ QƏDƏR AZƏRBAYCAN VAR, MƏN YAŞAYACAĞAM”

Zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi ilə Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Azərbaycan xalqının Xilaskar Oğlu Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı müstəqillik qazandığımız çox çətin və mürəkkəb illərə təsadüf edirdi. Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, Azərbaycan özünün əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi. O dövrdə siyasi hakimiyyətdə olanların səriştəsizliyi üzündən vətəndaş müharibəsinə rəvac verildi, milli dövlətçiliyimiz ikinci dəfə məhv olmağın bir addımlığına gətirildi. Belə bir zamanda, xalq milli dövlətçiliyi qorumaq və vətəndaş müharibəsinin ağır fəsadlarından qurtulmaq üçün Ümummilli Lider Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Ulu Öndər Heydər Əliyev 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəldi. Ulu Öndərin bu qayıdışı Vətənin xilası və xalqın qurtuluşu idi. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Əlbəttə ki, Ümummilli Lider Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycanın siyasi hakimiyyətinə gəlməsəydi, indi nə Azərbaycandan, nə də ölkəmizdəki bugünkü əmin-amanlıqdan və inkişafdan danışmaq olmazdı. 1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəmizin müstəqilliyini əbədi etmiş oldu. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi-siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Bu parlaq dühanın xilaskarlıq missiyası nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən, Xalq Cümhuriyyətinin acı taleyini yaşamaq aqibətindən qurtuldu. Ulu Öndərin müdrikliyi, uzaqgörənliyi, qətiyyəti və dövlətçilik istedadı sayəsində Azərbaycan tezliklə təlatümlərdən, sarsıntılardan uğurla çıxaraq gələcəyə inamla baxan bir dövlətə çevrildi. Böyük zəka və iradə sahibi olan Ümummilli Lider Heydər Əliyev, qısa zaman kəsiyində, müharibə bölgəsində atəşkəsə, ölkədə möhkəm və dönməz sabitlik yaradılmasına, qeyri-qanuni silahlı dəstələrin ləğvinə, ümummilli böhrana son qoyaraq, demokratik islahatların həyata keçirilməsinə nail oldu. Azərbaycanın elə bir sahəsi yoxdur ki, Heydər Əliyev orada izi olmasın, möhrünü vurmasın. Özünün dediyi kimi, ”Nə qədər Azərbaycan var, mən yaşayacağam. Mən Azərbaycanda əbədi olacağam. Ona görə ki, müstəqil Azərbaycan dövləti əbədi olacaq”. İctimai-siyasi həyatın bütün sahələrində qazanılan uğurlar milli tərəqqimizi təmin etməklə yanaşı, dövlətimizin beynəlxalq aləmdə nüfuzunu da artırır, onu dünya birliyinin etibarlı tərəfdaşına çevirir. Bütün bu uğurların mənbəyində Heydər Əliyevin müdrik siyasəti dayanır. Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir. Ulu Öndərin quruculuq və inkişaf xəttinin davamçısı olan Cənab İlham Əliyev Onun siyasi kursunu uğurla davam etdirməklə, ölkəmiz sabitliyin və inkişafın, vətəndaş həmrəyliyinin təmin olunduğu güclü dövlətə çevrilib. 2003-cü ildən etibarən, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrdə yeni nailiyyətlərlə müşahidə olunan sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub.

## AZƏRBAYCAN TARİXİ ƏDALƏTİ HƏRBİ VƏ DİPLOMATİK YOLLA BƏRPA ETDİ

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu döyüş meydanında erməniyə ”dəmir yumruğ”un gücünü göstərdi. 44 günlük müharibədən sonra regionda yaranmış yeni vəziyyət və qalib dövlətimizin sülhsevər siyasəti dünyaya bir mesaj oldu. Azərbaycan XXI əsrin müharibəsini apardı və hərb tariximizə möhürünü vurdu. Azərbaycan hərbi, iqtisadi gücü ilə dünyanın diqqətini özünə cəlb etdiyi kimi, bu gün işğaldan azad olunan ərazilərimizdə həyata keçirilən abadlıq-quruculuq işləri ilə də dünya dövlətlərinin diqqətindədir. 2020-ci ilin noyabrın 8-də 28 illik həsrətdən sonra Şuşa şəhəri işğaldan azad edildi. Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şəhidlər Xiyabanında Azərbaycan xalqına müraciətində ”Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”, - deyərək xoş müjdəni verdi. Cənab İlham Əliyev bütün dünyaya Azərbaycanın gücünü, tarixi ədaləti diplomatik yol ilə bərpa etdiyini göstərdi. Vurğulamaq yerinə düşər ki, Ulu Öndər dəfələrlə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunması faktını beynəlxalq təşkilatların siyasi gündəliyinə gətirmişdir və bu səbəbdən, Heydər Əliyev hər zaman dünya erməniliyinin hədəfində olub. Azərbaycan-Ermənistan münaqişəsi ilə bağlı tarixi həqiqətlərin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında Ulu Öndər misilsiz səylər göstərmişdir. Bu gün Onun arzuları reallaşmışdır. Ümummilli Liderin siyasi zəkasının məhsulu olan qüdrətli Azərbaycan bu gün öz inkişaf tempinə görə, dünyanın lider dövlətləri sırasındadır. Millətin məhəbbətini qazanmış Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi kimi əbədi olaraq yaşayacaqdır.

***Zümrüd BAYRAMOVA***

# Qələbəmizi dünyaya göstərən möhtəşəm - ZƏFƏR PARADI!



## ILHAM ƏLIYEV: "Azərbaycanın müzəffər ordusu öz tarixi missiyasını yerinə yetirdi - Ermənistanı məğlub etdi"

***Düz iki il öncə Qələbə Zəfəri ilə keçirilən Qələbə Paradının həsrətini düz 30 il idi ki, gözləyirdik. Sentyabrın 27-dən başlanan ikinci Qarabağ müharibəsində 5 şəhərimizi Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində işğaldan azad etdik, Azərbaycanın müzəffər ordusu 5 min kvadrat kilometr ərazisini isə döyüş meydanında heç bir güllə atmadan, şəhid vermədən siyasi meydandakı qələbəsilə qaytartdı. Yeri gəlmişkən, Zəfər paradında 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin nümayişi oldu.***

Paradda, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi nümayiş etdirildi. Bu böyük qələbəmizdir. Bu qələbə münasibəti ilə keçirilən parad isə həm də o topaqlarımızın 30 il həsrətində olduğu Qələbə paradı oldu. Nəhayət, bu Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının həm siyasət, həm də döyüş meydanında diplomatik siyasətinin, Müzəffər Şanlı Ordumuzun, igid əsgər və zabitlərimizin qanı töküldüyü Qarabağ Azərbaycandır! - Müqədəs torpağımızın həsrətinə son qoyulduğu Zəfərin dünyaya nümayiş ediləcək paradı oldu. Bu parad torpaqlarımızın işğaldan azad olunmasında hərbi texnikamızın, həmin torpaqlarda dalğalanan üç rəngli Bayraqlarımızın nümayiş olunduğu, intizarında və həsrətində olduğumuz parad oldu.Beləliklə, Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş möhtəşəm Zəfər paradının keçirilməsi ilə Azərbaycanın şanlı qələbəsi əzəmətli və təntənəli şəkildə təqdim olundu.

### MÖHTƏŞƏM QƏLƏBƏ, YAXUD AZƏRBAYCAN ÖZ GÜCÜNÜ BÜTÜN DÜNYAYA GÖSTƏRDİ

Heç şübhəsiz, 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən 44 günlük İkinci Qarabağ - Vətən müharibəsi iftixar mənbəyimizdir. Azərbaycan xalqı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarix yazdı, adını tarixə silinməz izlərlə - qızıl hərflərlə əbədi həkk etdirdi. 44 günlük Zəfər yürüşünün hər anı, hər məqamı qəhrəmanlıq dastanı, rəşadətli, cəsarətli və şərəfli Azərbaycan xalqının milli mübarizə nümunəsidir.Azərbaycan Prezidenti Vətən müharibəsinə qədər münaqişənin həlli ilə bağlı qətiyyətli mövqeyini dəfələrlə ifadə etmişdi: "Azərbaycan xalqı və dövləti heç vaxt işğal faktı ilə barışmayacaq". Prezident İlham Əliyev ölkəmizin münaqişənin sülh yolu ilə həllinin tərəfdarı olsa da, imitasiya naminə danışıqlarda iştirak etmək niyyətində olmadığını vurğulamışdı. Ermənistan isə bu müddət ərzində sadəcə olaraq status-kvonu qoruyub saxlamağa, işğalçı siyasətini davam etdirməyə çalışdı. Bu ölkənin hərbi-siyasi rəhbərliyi müxtəlif formalarda münaqişənin həlli ilə bağlı ziddiyyətli bəyanatlar səsləndirdi, bu məsələ ilə əlaqədar beynəlxalq qanunvericiliyin tələblərinə uyğun olmayan çıxışlar etdi. Beləliklə, Ermənistan həm hərbi, həm də diplomatik-siyasi müstəvidə təxribatlar etməklə danışıqlar prosesini faktiki olaraq pozdu. Ötən il sentyabrın 27-də işğalçı Ermənistanın təcavüzkar silahlı birləşmələrinin qoşunların təmas xəttinin geniş bir coğrafiyasını əhatə edən ərazilər üzrə Azərbaycanın kəndlərinə hücumlara başlamaqla növbəti təxribatlar törətməsi Azərbaycan dövlətinin və xalqının səbrinin tükənməsinə səbəb oldu. 2020-ci il sentyabrın 27-də işğalçı Ermənistanın təcavüzkar silahlı qüvvələrinin növbəti təxribatının qarşısını alan Azərbaycan əks-hücum əməliyyatına başladı, öz ərazilərini işğaldan azad etmək üçün Zəfər yürüşünə start verdi. Beynəlxalq hüquq normalarına, o cümlədən BMT Nizamnaməsinin 51-ci maddəsinə əsaslanaraq əks-hücum əməliyyatlarını uğurla həyata keçirən müasir və qüdrətli Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi ədaləti və ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə müvəffəq oldu. Beləliklə, Azərbaycan işğal faktı ilə barışmadı və öz milli gücü, hərbi-siyasi resursları ilə məsələni həll etdi. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev paradda çıxışı zamanı deyib ki, Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu: "Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq".Beləliklə, Azərbaycan Ordusu Vətən müharibəsində 300-dən çox yaşayış məntəqəsini işğaldan azad etdi. Noyabrın 8-də Şuşanın, ertəsi gün isə daha 70-dən artıq yaşayış məntəqəsinin işğaldan azad edilməsindən sonra düşmən onun üçün kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzalamaq məcburiyyətində qaldı. Müzəffər Ali Baş Komandanımızın qeyd etdiyi kimi: "Biz Ermənistanı döyüş meydanında məhv etdik. Biz ermənilərin uzun illər yaratdıqları mifi darmadağın etdik. Onlar öz ordusu haqqında yalan məlumat ötürərək mif yaratmışdılar, guya Ermənistan ordusu yenilməz ordudur. Cəmi 44 gün ərzində Ermənistan ordusu məhv edildi, hərbi texnikası məhv edildi, canlı qüvvəsi məhv edildi və Azərbaycan öz gücünü, öz qüdrətini göstərdi".Nəticə etibarilə, Müzəffər Ali Baş Komandanımızın qətiyyəti, rasional siyasəti, dəmir məntiqi, polad iradəsi, Azərbaycan xalqının mübarizə əzmi və Ordumuzun gücü haqq-ədalətin bərpasını təmin etdi. Ona görə də 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının Zəfər salnaməsi - Qələbə dastanıdır. Bu Zəfər yürüşü, eyni zamanda Müzəffər Ali Baş Komandan İlham Əliyevin "münaqişənin hərbi həlli yoxdur" deyənlərə ən tutarlı, layiqli və sərrast cavabı oldu!

### DÜNYA BİR DAHA AZƏRBAYCAN-TÜRKİYƏ MƏNƏVİ-SİYASİ BİRLİYİNİN SARSILMAZLIĞINA ŞAHİD OLDU

Həmişə olduğu kimi, Zəfər Paradında da qardaş Türkiyə yenə də öndə gəlir. Ümumiyyətlə, İkinci Qarabağ müharibəsi Azərbaycan-Türkiyə qardaşlığının sarsılmaz olduğunu və möhkəm təməllərə əsaslandığını bir daha bütün dünyaya nümayiş etdirdi. İki ölkə, sözün əsl mənasında, yeni bir dostluq və qardaşlıq dastanı yazdı, tarixi salnamə yaratdı.Elə Zəfər paradı da Azərbaycanın gücünü, qüdrətini nümayiş etdirməklə yanaşı, bir millətin iki dövləti olan Azərbaycan ilə Türkiyənin dostluğunun, qardaşlığının və strateji tərəfdaşlığının rəmzlərindən birinə çevrildi. Azərbaycan Prezidentinin və Vətən müharibəsində ölkəmizə mənəvi-siyasi dəstək verən qardaş Türkiyənin Prezidentinin qatıldığı paradda "Qarabağ Azərbaycandır!" şüarı bir daha qürurla ifadə olundu, Azərbaycan-Türkiyə bütün dünyaya nümayiş etdirildi. Prezident İlham Əliyev paradda çıxışı zamanı "Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir. Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda, bütün dünyaya göstəririk",-deyə vurğuladı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə qeyd etdi ki, Türkiyə Azərbaycanın apardığı mübarizəyə ilk günlərdən bütün qurum və təşkilatları ilə dəstək vermiş, bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanında olmuşdur: "Türkiyə olaraq Azərbaycan ilə münasibətlərimizdə özümüzə hər zaman böyük lider Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün dəqiq ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik. Bu anlayışla Qarabağı 30 il boyunca sinəmizdə yara etdik. Bu gün də bu yaranın sağalmasının sevincini paylaşmaq, bu şanlı zəfəri birlikdə qeyd etmək üçün aranızdayıq". Paradda Azərbaycanın möhtəşəm tarixi qələbəsindən, yeni mərhələdə qarşıda duran vəzifələrdən və yeni reallıqlardan bəhs edən Rəcəb Tayyib Ərdoğan "Azərbaycanın həm hərbi, həm də diplomatiya sahəsində əldə etdiyi bu uğurda ən böyük paylardan biri, şübhəsiz ki, əziz qardaşım cənab Prezident İlham Əliyevə aiddir",-deyə xüsusi olaraq vurğuladı.Bəli, Zəfər paradı Azərbaycan xalqı üçün qürur, şərəf, ləyaqət simvolu, ermənilər üçün məğlubiyyət, işğal siyasətinin acı ibrət dərsi olaraq tarixləşdi. Zəfər paradı bir daha göstərdi ki, peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir və bu ordunun gücü onun öz xalqına və dövlətinə sədaqətində, Vətən sevgisindədir. Bizə bu Qələbəni yaşadan Müzəffər Ali Baş Komandanımıza, rəşadətli Azərbaycan Ordusuna, Vətən torpaqları uğrunda canlarından keçən igid oğullarımıza minnətdarıq!Və 10 dekabr Paradı tariximizin ən parlaq səhifəsi olaraq, haqqın-ədalətin, ərazi bütövlüyümüzün bərpa olunduğunun, 30 ilə yaxın torpaqlarımızın düşmən həsrətinə 44 gün ərzində apardığı Vətən Müharibəsinin Şanlı Qələbəsinin və üç rəngli Bayrağımızın bütün dünyaya nümayiş edildiyi tarix və Meydandır! Qarabağ Azərbaycandır!!!

**RƏFİQƏ KAMALQIZI**

# Bakıda "Media savadlılığı" konfransı keçirilib



***Dünən Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə media savadlılığı mövzusunda məlumatlılığın artırılması məqsədilə Bakı şəhəri və regionlarda yaşayan 300 nəfərə yaxın gəncin iştirakı ilə Bakı Gənclər Mərkəzində "Media savadlılığı" konfransı keçirilib. Ümummilli lider Heydər Əliyev və Vətənin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Tədbirdə açılış nitqi ilə çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov vurğulayıb ki, hazırda elektron informasiya cəmiyyətinin əhatə dairəsinin sürətlə genişlənməsi, rəqəmsal reallıq şəraitində məlumatlara əlçatanlığın asanlaşması, cəmiyyətin məlumatın obyektiv tərəfini müəyyənləşdirməkdə çətinliklərlə qarşılaşması media savadlı istehlakçıların yetişdirilməsinə zərurət yaratmaqla yanaşı, medianın öz peşəkar funksiyasını effektiv yerinə yetirməsi istiqamətində ardıcıl və təxirəsalınmaz addımların atılmasını tələb edir.



Daha sonra Azərbaycan Respublikasının Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehovun moderatorluğu ilə "Müasir informasiya mühitində media təhsili" mövzusunda panel sessiya keçirilib. Panel sessiyada çıxış edənlər - elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Fuad Hacıyev bildiriblər ki, məktəbdə və məktəbdənkənar hazırlanan və tədris edilən proqramlar, təlimlər, konfranslar, rəqəmsal media bacarıqlarının təkmilləşdirilməsinə və media məlumatlılığının tədbirlər gənclərin sosial-mədəni potensialının gücləndirilməsi, eləcə də cəmiyyətin inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir. Gənclər arasında media savadlılığının artırılması üçün maarifləndirmə işlərinin genişləndirilməsinin, həmçinin məlumat istehsalı və istehlakı proseslərində savadlılıq anlayışının müasir dövrün tələblərinə uyğunlaşdırılmasının vacibliyini vurğulayıblar.

"Gənclərin ictimai və sosial inkişafında media savadlılığının əhəmiyyəti" mövzusunda ikinci panel sessiyaya moderatorluq edən "ASAN Radio"nun direktoru Emin Musəvi MEDİA Agentliyi ilə birgə həyata keçirilən "Smart media" layihəsinin əhəmiyyətini vurğulayıb. Gənclər və idman nazirinin müavini İndira Hacıyeva çıxışında qeyd edib ki, media savadlılığının artırılması medianın mənfi nəticələrini minimuma endirmək, rəqəmsal platformalarda iştirakın potensial zərərli təsirlərini azaltmaq, eləcə də gənclərə rəqəmsal dünyada tənqidi istehlakçılar və yaradıcılar olmağa kömək etmək üçün ən əsas alətlərdəndir.

Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov bildirib ki, qlobal informasiya mühitinin modernləşməsi bir çox həssas istifadəçi qrupları, yəni uşaq, yeniyetmə və gəncləri medianın mənfi təsirlərinin birbaşa hədəfi halına gətirir. Ona görə də beynəlxalq təcrübədə bu sahədə görülən işlər ilkin olaraq gənclər üçün maarifləndirmə və təhsil proqramlarının icrası istiqamətindədir. ADA Universitetinin Kommunikasiya və Rəqəmsal Media proqramının rəhbəri Şəfəq Mehrəliyeva media savadlılığı bacarıqlarının artırılmasının məqsədindən, media kontentinin dəyərləndirilməsi ilə bağlı geniş və davamlı xarakter daşıyan maarifləndirmə işlərinin aparılmasının vacibliyindən danışıb.

Azərbaycan Könüllü Təşkilatları İttifaqının sədri Yusif Vəliyev son illərdə ölkədə informasiya kommunikasiya texnologiyaları sektorunun sürətlə və dinamik şəkildə inkişaf etməsinin gənclər arasında media savadlılığının artırılmasını, bununla bağlı koordinasiyalı tədbirlərin görülməsini zəruri etdiyini vurğulayıb.

Konfrans çərçivəsində MEDİA Agentliyinin nümayəndəsi Pərvanə İbrahimova və Bakı Dövlət Universitetinin Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının dosenti Vəfa İsgəndərovanın təqdimatında gənclərin iştirakı ilə "Dezinformasiyaya qarşı: Faktların araşdırılması" mövzusunda vörkşop baş tutub. Sonda interaktiv müzakirə sessiyaları olub, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Azərbaycan Ordusunun döyüş taktikası Yaponiya mediasında













***Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsində tətbiq etdiyi uğurlu döyüş taktikası və müasir silahlardan istifadə bacarığı bütün dünya ilə yanaşı, Yaponiya mediasının da diqqətindədir.***

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib Ordumuzun Vətən müharibəsində göstərdiyi qəhrəmanlıq, döyüş taktikası, düşmən hədəflərinin yüksək dəqiqliklə məhv edilməsi bu gün də Yaponiyanın tanınmış hərbçiləri və kütləvi-informasiya vasitələri tərəfindən böyük diqqətlə öyrənilir və təhlil edilir. Hazırda Rusiyanın Ukraynada apardığı hərbi əməliyyatlar bu mövzunun təkrar gündəmə gəlməsinə böyük təkan verib. Xüsusən hərbçilərimizin pilotsuz uçuş aparatlardan bacarıqla istifadə etməsi, düşmənin döyüş hədəflərinə yüksək dəqiqliklə endirdiyi zərbələr xüsusən hərbi mütəxəssislər tərəfindən təhlil edilir və diqqətlə öyrənilir. Məhz Azərbaycan Ordusunun həmin dronlardan yüksək ustalıqla istifadə etməsi bu PUA-lara olan marağı həddindən çox artırıb. Xüsusən mülki əhaliyə ziyan vurmadan düşmənin hərbi texnikasını və döyüş qüvvələrini məhv edən "Bayraktar-TB2", "Harop" kimi PUA-larla endirilən dəqiq zərbələrin videogörüntüləri Azərbaycan Müdafiə Nazirliyinə istinadla yapon izləyicilərə təqdim edilir. Bakıda keçirilən Qələbə paradında və Hərbi Qənimətlər Parkında nümayiş etdirilən Ermənistan hərbi texnikasının qalıqlarının məhz bu silahlar vasitəsilə məhv edildiyi qeyd olunur. Vurğulanır ki, həmin silahlar yalnız müasir dövrümüzün deyil, həm də gələcək müharibələrin əsas hərbi sursatı kimi xüsusi diqqətdə saxlanılmalıdır.

Yaponiyanın çoxtirajlı "Asahi shimbun", "Mainichi shimbun", "Nikkei" və "Sankei" kimi qəzetlərində, Kyodo news və JIJI PRESS kimi agentliklərin, jp.globalvoicees.org və nippon.com kimi saytlarının yaydığı məlumatlarda, NHK, TBC, Fuji TV kimi telekanallarda təqdim edilən video materiallarda Azərbaycan Ordusunun döyüş təcrübəsinin öyrənilməsinə böyük diqqət yetirilməsinin zəruriliyi də vurğulanır. Hərbi ekspertlərin apardığı təhlillərdə bu təcrübənin öyrənilməsinin əhəmiyyəti xüsusi qeyd edilir.

Məhz bu təhlillərin və çağırışların nəticəsidir ki, Yaponiya hökuməti qarşıdakı beş il üçün nəzərdə tutulan təhlükəsizlik strategiyasında "Bayraktar-TB2" və "Harop" kimi pilotsuz uçuş aparatlarının əldə edilməsini xüsusi vəzifə kimi qarşıya qoyub. Digər yüksək dəqiqlikli silahlarla yanaşı, dronların alınmasına böyük məbləğdə vəsaitin ayrılması planlaşdırılıb.

Göründüyü kimi, qalib Azərbaycan Ordusunun haqq döyüşlərində nümayiş etdirdiyi qəhrəmanlıq və döyüş təcrübəsi, müasir silahlardan bacarıqla istifadə etməsi həm bizim gələcək nəsillər, həm də dünyanın ən qabaqcıl dövlətləri üçün mühüm mənbəyə çevrilib.

# Odəniş terminalların həyatımızdakı rolu nədir?



***Ödəniş terminalları beynəlxalq ödəniş sistemlərinin kartlarından istifadə etməklə ticarətdə ödənişləri qəbul etmək üçün xüsusi hazırlanmış təhlükəsiz aparat sistemləridir. Alış prosesinin sadələşdirilməsi və standartlaşdırılması da daxil olmaqla bir çox problemləri həll edir, nağd puldan qurtulmağa imkan verir və müştərinin ödəmə qabiliyyətini dərhal yoxlamağa imkan verir. Terminallar əsasən Çində layihələndirilir və istehsal edilir.***



## Bəs elektron ödənişlərin üstün cəhətləri nədir?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Elektron ödənişlər əhaliyə vaxta qənaət imkanı yaradır, nağd pul daşınmasının yaratdığı təhlükələrdən qoruyur, ticarət və xidmət obyeklərində saxta pullarla hesablaşmaların qarşısını alır. Eyni zamanda, vətəndaşların dövlət qurumlarına ödədiyi müxtəlif xidmət haqlarının hesabatlılığını təmin edir, şəffaflığa zəmanət verir.

Bütün bu sistem sayəsində vergidən yayınmanın qarşısı alınır və büdcəyə daha çox vəsait toplanır, ölkə iqtisadiyyatında maliyyə intizamı güclənir. Büdcəyə toplanan vəsaitlər isə əhalinin sosial rifahına yönəldilir.

Qazanılan etibar və əldə olunan uğurlarla kifayətlənməyən bir çox şirkətlər bu gün də hər ödəmədən sonra istifadəçi məmnunluğu yaratmaq istiqamətində tədbirlər həyata keçirir. Son illərdə təkcə terminalların sayının artırılması deyil, həm xidmət sahələrinin çoxaldılması, həm də göstərilən xidmət səviyyəsinin maksimum dərəcədə yüksəldilməsinə çalışan şirkət bununla bağlı qarşısına konkret hədəflər qoyur və bu hədəflərə doğru inamla irəliləməkdədir. Hesablamalara görə bütün bu faktorlar ödəniş terminallarına etdiyimiz investisiyaların özünü doğrultması üçün kifayət edəcək qədər müddət təmin edir. Həmçinin, şirkətlər yalnız hazırki bazar şərtlərini dəyərləndirməklə qalmır, eyni zamanda gələcək tendensiyalara uyğun layihələr üzərində də işləyirlər.

Ən sürət və keyfiyyət baxımından üstün cəhətləri ilə fərqlənən ödəniş aparatlardan biri ”eManat”dır.

Ölkə daxili statistikaya görə ”eManat” ödəniş kiosklarından istifadə sayı kifayət qədər yüksəkdir və günü-gündən artmaqda davam edir.



PR və Marketinq üzrə aparıcı mütəxəssis Ayşən Həsənova:”2013-cü ilin martın 5-də ”eManat” brendi Azərbaycan ödəniş bazarına daxil olmuşdur.

”e-Manat” Ödəniş sistemlərin üstün cəhətlərindən biri, ödənişin dərhal qəbulu və terminal sayının çox olmasıdır. Həmçinin sadə, rahat interfeys və sürətlə etibarlı xid-



mətin göstərilməsidir. ”e-Manat” terminallarında 50+ bank xidməti mövcuddur. Müştərilər eyni zamanda həm kart balansını artıra, kredit ödənişi ödəyə, həm də kart sifariş belə edə bilərlər.

Gələcəkdə müştərilərimizə daha çox dəyər qatmaq, onlara daha da yaxın olmaq üçün terminallarımızın sayını ucqar rayonlarda artırmaq, həmçinin müştərilırimizin işini asanlaşdırmaq üçün tələbat olan xidmətləri aktivləşdirmək və yeniliklər etməyi planlaşdırırıq”.

***Havar Şəfiyeva***

ARAŞDIRMA




# Pirallahıda “Gələcəyimizi ağ ölümdən xilas edək!” mövzusunda tədbir keçirilib



***Dekabrın 9-da Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun və "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin 2022-ci ilə dair imzalanmış birgə Tədbirlər Planına uyğun olaraq YAP Mərkəzi Aparatının və partiyanın Pirallahı rayon təşkilatının birgə təşəbbüsü ilə "Gələcəyimizi ağ ölümdən xilas edək!" mövzusunda tədbir keçirilib.***

Pirallahı Gənclər Mərkəzində keçirilən tədbiri giriş sözü ilə açan YAP Pirallahı rayon təşkilatının sədri Emil Abasov bildirib ki, narkomaniya ilə mübarizə sağlam cəmiyyətin formalaşması üçün zəruri şərtlərdəndir. Cəmiyyətdə ”ağ ölüm” kimi tanınan narkomaniya bəlası insan həyatında sağalmaz fəsadlar yaradır. Onun sözlərinə görə, Azərbaycanda narkomaniyaya qarşı sistemli mübarizə aparılır.

Çıxış edən YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva bildirib ki, tədbir dövlətimizin başçısının təsdiq etdiyi ”Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”nın icrasına uyğun olaraq keçirilir. Onun sözlərinə görə, narkomaniya ilə mübarizə və onun profilaktikası mühüm məsələ olmaqla yanaşı, sağlam gəncliyin yetişməsində ən vacib amillərdən biridir. Gənclərin bu kimi mənfi vərdişlərdən uzaq olması üçün maarifləndirmə tədbirləri daha da gücləndirilməlidir.

Pirallahı rayon İcra Hakimiyyəti başçısının birinci müavini, rayon İcra Hakimiyyəti başçısı yanında fəaliyyət göstərən Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Komissiyanın sədri Vəzir Səfixanov çıxış edərək rayonda bu sahədə həyata keçirilən tədbirlər haqqında məlumat verib.

Tədbirdə, həmçinin Pirallahı rayon polis şöbəsinin rəis müavini, polkovnik-leytenant Elman Kazımov, ”Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin nümayəndəsi Şahin Verdiyev və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun əməkdaşı Vasif Quliyev çıxış edərək narkomaniyanın fəsadlarından bəhs edib, bu bəla ilə mübarizənin əhəmiyyətindən danışıblar. Qeyd olunub ki, yeniyetmə və gənclərimizin təlim-tərbiyəsi, elmə, təhsilə və idmana marağının artırılması da onların zərərli vərdişlərdən uzaqlaşmalarında vacib amildir. Vurğulanıb ki, narkotik maddələrdən asılılıq insanın ailəyə, cəmiyyətə bağlılığını azaldır və nəticədə onu cəmiyyət üçün faydasız fərdə çevirir. Cəmiyyətlə şəxsiyyət arasındakı əlaqənin pozulması təkcə onun özünə deyil, həm də ətrafına mənfi təsir göstərir. Buna görə də gələcəyimiz olan gənclər narkomaniyanın nə qədər zərərli, təhlükəli olduğunu bilməlidirlər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# Makron adlı kərtənkələ

## *Yaxud İŞİD və PKK/YPG terror təşkilatı ilə işbirliyində olan dövlət rəsmisinin adı nə?*



***Fransanın indiki prezidenti Emmanuel Makronun yaxın keçmişi barədə məlumatlar dolaşır. O məlumatlar ki, bunlar Fransa prezidentinin onsuz da olmayan nüfuzuna ağır zərbə vurur və bundan sonra da vurmaqda davam edəcək. Söhbət Makronun prezident seçilməmişdən əvvəl, hələ maliyyə nasiri postunu tutduğu vaxt Suriyadakı İŞİD və PKK/YPG terror təşkilatları ilə işbirliyində olmasından gedir. Bu, əlbəttə, BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi Fransanın nüfuzunu öldürəcək.***

Terrorçularla əlaqələri dünyanın tanınmış media agentlikləri də araşdırır. Hələlik əldə olunan faktlar da kifayət edir ki, rəsmi Parisindünya 5-indən biri olmasına son qoyulsun. Əslində, bu, yeni xəbər də deyil. Amma nə qədər ki, Makron kimi kərtənkələlərin dərsi verilməyib, bu mövzu bitmiş deyil, daim aktual olaraq qalacaq.

Makron bu gün də Fransanın nüfuzunu xərcləməkdədir. Bu dəfə də Qarabağdakı separatçıları dəstəkləyir, yaxud da erməni terrorçularına qucaq açır, onları bəsləyir, ölkəsində onlara geniş imkanlar yaradır, etirazlara, rəsmi notalara baxmayaraq Azərbaycanın ərazi



bütövlüyünü şübhə altına alır, 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş qətnamələrin altında imzasının olmasına baxmayaraq suverenliyimizin Ermənistan tərəfindən pozulmasına göz yumur, eyni zamanda onların təxribatçı əməllərinə şərik olur. Azərbaycanın haqlı davasında - 44 günlük Vətən müharibəsində qalib gəlməyimizi sığdıra bilmir. Əlahəzrət faktlar da bunu deyir.

Fransa paytaxtının meri Ann Hidalqo Qarabağda sülhməramlıların qanadı altına sığınaraq Azərbaycanın ədalət məhkəməsindən hələ də gizlənməyi "bacaran" Arayik Arutyunyanı əmin edib ki, Paris həmişə "Artsax"ın və onun "xalqının" yanında olacaq, onların öz müqəddəratını təyin etmək və dinc yaşamaq hüquqlarını qoruyacaq. Bu, açıq şəkildə suveren ölkənin daxili işlərinə kobud şəkildə burnunu soxmaq və başqa ölkənin ərazi bütövlüyünü şübhə altına almaqdır ki, bunu da cəzası ağır olur.

Görüşdə daha nələr yaşanıb? Parisin meri "Artsax və Fransa arasında əlaqələrin inkişafı, Azərbaycan-Qarabağ münaqişəsinin həlli" məsələlərini də müzakirə edib. Arutyunyan da tənbəllik etməyərək "Azərbaycan tərəfinin nəzarətində olan ərazilərdə erməni mənəvi və mədəni irsinin qorunmasına yönəlmiş səyləri" bundan sonar da Fransanın davam etməsini xahiş edib. Arutyunyan əlinə düşən bu fürsətdə maksimum yararlanmaq üçün az qala diz çöküb, vaxtın azlığından şikayət edib, sülhməramlıların tezliklə bu əraziləri




tərk edəcəyini xatırladıb və əlac edilməsə "Artsax"ı itirəcəklərini deyib.

Əlbəttə, bizə Arutyunyanın nə dediyi, hansı mövzuda çıxış etməsi maraqlı deyil, bizə Fransanın qanunsuz əməlləri, separatçılara dəstəyi, dünya birliyinin uzun illərdir ki, qəbul etdiyi və dünyanın nizam tərəzisini sağlam şəkildə yönləndirməyi az da olsa bacaraq, istinad yeri olan qanunları çeynəməsidir. Fransa açıq şəkildə, heç kimdən çəkinmədən dünyada qəbul edilməyən separatizmi dəstəkləyir, hətta bununla qürur duyur. Azərbaycanda bir dəvə misalı var, "dəvə başını pambıq koluna soxub, elə bilir gizlənib". Fransanın Afrikada, Yaxın Şərqdə, Okeaniya ölkələrində etdiyi hərbi cinayətləri, soyqırımları Parisin yadına salmaq ziyanlı olmaz. Başqa ölkələrə ağıl dərsi keçən, dümokratiyadan, insan haqlarından ağız dolusu danışması da bizə "oğru elə bağırdı ki, doğrunun bağrı yarıldı" kəlamını xatırladır. Nə oldu, Fransa? Nə tez unutdun bunları? Sən unutsan da əlcəzairlilər, ruandalılar, madaqaskarlılar, kaledoniyalılar, korsikalılar heç vast unutmayacaqlar. O qanlı hadisələr onların geninə hopub, nəsildən nəsilə keçir.

Qayıdaq Fransa-erməni münasibətlərinə və separatçılara dəstək məsələsinə. Ən acınacaqlı durum budur ki, bu cinayətdə Fransa mediası da yaxından iştirak edir. Arayikilə görüşdə bu ölkənin tanınmış media qurumlarını nümayəndələri də iştirak ediblər. Yəni Parisin cinayətlərinə şərik olublar. Bəli, bu xəbər hazırlamaq yox, separatçılığı təbliğ etməkdir. Fransa-24 televiziya kanalında separatçının nə işi ola bilərdi, amma Fransanın tanınmış televiziyası diktator Makronun göstərişlərinə əmək edərək erməni separatçılarına gen-bol şərait yaratdı. Budur, Fransa mətbuatının iç üzü.

Arutyunyan Fransa vasitəsilə bütün Avropa dövlətlərinə Azərbaycanın təkəbbürlü davranışının qarşısını almaq üçün tədbirlər görülməsini istəyib və xatırladıb ki, Azərbaycan Türkiyə tərəfindən də dəstəklənir. Guya, Azərbaycan tək olsaydı Ermənistana qalib gələ bilməzmiş Deyib ki, Avropanın Azərbaycanla neft və qaz maraqları olduğunu başa düşürük, amma bizim öz müqəddəratımızı təyinetmə hüququmuz ondan üstün olmalıdır. Bir sözlə, erməni separatçı şıltaq qız kimi ağlına gələni istəyib, Fransa da böyük bacı kimi onunla razılaşıb.

Yadınızdadırsa Fransa Senatının geniş tərkibli nümayəndə heyəti Ermənistanda səfərdə olmuşdu. Senat sədri Jerar Larşenin Ermənistanda uydurma "soyqırımı" tədbirləri ilə üst-üstə düşən səfəri çoxsaylı görüşlərlə və Senat sədrinin çoxsaylı suallar doğuran açıqlamaları ilə yadda qaldı. 44 günlük müharibədə Ermənistanın təslim olmasından sonra Fransa esteblişmentində 2-ci şəxsin Ermənistanda olarkən ziddiyyətli və qərəzli açıqlamaları Cənubi Qafqaz regionunda Fransa siyasətinin prioritetlərini üzə çıxarır. Buradan belə görünür ki, Azərbaycana qarşı aparılan qarayaxma kampaniyalarının ilham mənbəyi məhz Fransadır. Cənubi Qafqaz siyasətində ölkəmizə qarşı uydurma ittihamlar Senatın əsas işidir, desək yanılmarıq. 10 noyabr tarixli üçtərəfi Bəyanatla münaqişəyə son qoyulması və Fransanın tənzimləmə prosesindən kənarda qalması Parisi oyundankənar vəziyyətə salıb. Beynəlxalq siyasətdə isə bu, böyük dövlət olmaq iddialarından geri çəkilməkdir. Həm də, böyük dövlət olmağın bir yolu da ədalətli olmaqdan keçir, amma bunun Fransa ilə heç bir əlaqəsi yoxdur.

Fransalı senator Natali Qulenin sorğusunda isə yazılır: "Uzun illərdir ki, Ermənistanla Azərbaycan arasında münaqişə mövcuddur. Münaqişənin həll olunması məqsədilə ATƏT Fransa, ABŞ və Rusiyanın həmsədrliyi ilə məlum Minsk Qrupunu yaradıb. Lakin son aylarda Minsk Qrupunun həmsədri kimi elementar neytrallıq prinsiplərini pozmaqla Fransa qətiyyətlə və ardıcıl olaraq Ermənistanı dəstələdiyini nümayiş etdirir. Əvvəllər heç zaman prezidentin və ya hökümətin bölgəyə səfəri tək Ermənistanla məhdudlaşmayıb və Fransa höküməti münasibətlərdə balansı qorumaq məqsədilə hər dəfə Ermənistana səfər edəndə bir neçə




saatlıq da olsa Azərbaycanda da səfərdə olub. Əvvəllər heç zaman yüksək səviyyəli parlament diplomatiyası fransız diplomatiyasının rəsmi mövqeyinə zidd mövqe sərgiləməyib...". Göründüyü kimi, Fransanın prezidenti ilə Senat sədrinin bölgəmizlə açıqlamalarının bir-birinə zidd olması Fransa senatorunun diqqətindən yayınmayıb.

Rəsmi Parisin Azərbaycanla Ermənistan arasında sülh prosesində birtərəfli mövqeyi hər kəsə bəllidir. Fransa Senatı və Milli Assambleyasının Azərbaycan əleyhinə qəbul etdiyi bədnam qətnamələr təxribatdan başqa bir şey deyil. Bu ermənipərəst siyasətin ən təhlükəli cəhəti ondan ibarətdir ki, Paris Bakı ilə İrəvan arasında vasitəçiliyə iddia edir. Əslində isə, regional sülhü zərbə altında qoyur. Ermənistan hazırkı şəraitdə silahlı qüvvələri və iqtisadiyyatı dağılmış vəziyyətdədir. Ermənilərin yeganə xilas yolu qonşuları, xüsusən Azərbaycan və Türkiyə ilə inteqrasiya prosesini dərinləşdirməkdir.

Fransa uzun müddət ATƏT-in Minsk qrupunun həmsədri olub. Belə bir qərəzli mövqe nümayiş etdirən dövlət vasitəçilik təşəbbüsü ilə necə çıxış edə bilər? Fransa bu cür mövqe nümayiş etdirməklə Azərbaycan və Ermənistan arasında vasitəçilik edə bilməz. Fransa vasitəçilik üçün siyasi, mənəvi haqqını itirib. Bu ölkənin başçısı Makron isə ilana zəhər daşıyan yaşıl kərtənkələdən fərqli deyil.

### Makron barədə nə deyirlər?

Fransız siyasətçilər Makron haqqında: "O, hamı ilə dostdur, amma heç kimin dostu deyil".

Həyat yoldaşı Birijit: "Makron özünü "İsa Məsihin Yerdəki siması" hesab edir.

İngilis siyasətçilərin də gəldiyi qənaət budur: "Makron erməniləri müdafiə etməyə məhkum və məcburdur, onu qorxudan əsas məsələ isə odur ki, prezident kimi birtərəfli mövqeyi sonda Fransanın ATƏT-in Minsk qurpundakı həmsədrlikdən uzaqlaşdırılması, regionda təsir imkanlarının hədsiz şəkildə azalması ilə nəticələnə bilər".

Fransız siyasətçilər: "Makronun Qarabağ məsələsindəki hazırkı mövqeyi onun ənənəvi və axına qarşı getmə instinkti (psixoloji durumu) və Fransanın maliyyə sistemindəki erməni dostlarının olması ilə bağlıdır".

Türkiyəli ekspertər: "Makron kiçik hərəkətlərdən özünə böyük düşmənlər qazana bilmək "qabiliyyətinə" malikdir. Türkiyə prezidenti Ərdoğanın beynəlxalq tədbirdə şəkil çəkdirən zaman Makronun zorla özünü sıraya soxması, salam vermək üçün uzatdığı əlinin havada qalması onu affekt vəziyyətinə sala biləcək qədər "təhlükəli" haldır.

### Bundan başqa

- Makron "Ölü kapital"ı insan ölümü üzərindən "diriltməyi" bacaran investisiya mütəxəssisidir. O, 2014-cü ildə İqtisadiyyat, sənaye və rəqəmsal işlər naziri vəzifəsinə təyinatını bütün rəqiblərini mənəvi və fiziki terrora məruz qoymaqla reallaşdıra bilmişdi. Rəqibləri onu "soyuq qatil" adlandırırdılar. Onun nazir vəzifəsinə təyinatına qarşı çıxanlar indi iş sferasında görünmürlər, bəlkə də həyatda yoxdurlar.

- Fransanın tərəfkeşliyi Qarabağ probleminin həllində onu kənarda saxlayıb, Makron prosesin tərəfsiz iştirakçılarından birinə çevrilə bilmədi. Rusiya və Türkiyənin aktivliyi Fransanın birtərəfli mövqeyindən daha effektli vasitə kimi problemin həllinə təsir edə bilir.

Vəssalam...

***V.VƏLİYEV***

# Tək yumruq, tərs şillə!

***Azərbaycan tarixin bütün dönəmlərində qonşuları ilə xoş münasibətdə olmuşdur. Xalqımızın çoxəsrlik tarixində elə bir hadisə baş verməmişdir ki, bu qonşuluq münasibətlərinə xələl gətirsin. Düşünəndə ki, ölkəmiz Rusiya, Türkiyə, İran kimi nəhəng, Ermənistan, Gürcüstan kimi SSRİ görmüş dövlətlərlə həmsərhəddir, bəli, bütün bunların kontekstində Azərbaycanın bu ölkələrin hər biri üçün dəyərli müttəfiqliyini, dostluq və qardaşlıq əlaqələrini qoruyub saxladığını, onların heç birinin ərazilərində gözü olmadığını, milli və mədəni dəyərlərinə hörmətlə yanaşdığını zaman özü təsdiq etmişdir.***





Zaman bu qonşuların əhatəsində Azərbaycana bir çox məqamları da göstərmişdir. Kimin dost, kimin düşmən olduğunu, kimin üzdə bir, arxada min sifətdə olduğunu, kimin səmimi, kimin qeyri-səmimi olduğunu açıq-aydın göstərmişdir. Biz düşmənimizi də gördük bu qonşuluqda, onun havadarlarını da. Süfrəmizin qırıntısı ilə qarnını doyurub, sonra həmin süfrənin üzərində açıldığı torpağı iddia edənləri də, bu yolda yanlarında olanları, onlara dəstək verənləri də gördük. Torpaqlarımızın 30 il əsarətdə saxlanılmasına bais olanları da gördük, saman altından su yeridib erməni adlı qonşuludan kənar olanlara silah-sursat verənləri də gördük. Öz dinindən olanlara yox, dini məlum olmayanlarla əlbir, dilbir olanları da gördük.

Qürurla söyləyə bilirik ki, qonşularımız arasında Türkiyəni də gördük. Bu ölkə ilə tarixən xoş münasibətlərimiz olub. Lakin 30 il öncə müstəqilliyimizin bərpasından sonra, Azərbaycan müstəqil bir dövlət quruluşuna sahib olduqdan sonra Türkiyə ilə qardaşlıq və dostluq münasibətlərimiz inkişaf edərək müttəfiqlik səviyyəsinə çatdı. 2020-ci ildə 44 günlük İkinci Vətən Müharibəsində isə hər an yanımızda olan Türkiyə düşmənin başına endirilən dəmir yumruğa güc-qüvvə oldu. Böyük və tarixi qələbənin qazanılmasında yanımızda oldu. Son iki ildəki Azərbaycan-Türkiyə münasibətləri isə bu iki dövlət, bir millətin ayrılmaz, güclü yumruq olduğunu təsdiq etdi. Bu tərk yumruq isə ətrafda quyruq bulayanlara elə bir tərs şillə endirib ki, artıq bütün dünya bundan danışır.

### Ümummilli lider Heydər Əliyev: tək yumruğun təməl daşını qoyan şəxsiyyət

Azərbaycan-Türkiyə münasibətlərinin təməlində ümummilli liderimiz Heydər Əliyev dayanır. Ulu öndər 1990-1993-cü illərdə Naxçıvanda yaşadığı və fəaliyyət göstərdiyi vaxt Azərbaycanın bu qədim diyarı ermənilər tərəfindən blokadaya salınmış, insanlar qazsız, işıqsız qalmışdılar. Paytaxt Bakı ilə quru yol bağlanmış, Bakıdan Naxçıvana gələn qatarlar ermənilər tərəfindən dayandırıldığından bölgədə gərgin vəziyyət yaranmışdı. Belə bir dövrdə naxçıvanlılar böyük çətinlik qarşısında qalmışdılar. Muxtar respublikada aclıq başlamışdı.

Həmin dövrdə ulu öndər Heydər Əliyev Naxçıvanda yaşamasaydı, Naxçıvan da digər rayonlarımız kimi ermənilər tərəfindən işğal olunacaq, insanlar isə aclıq-səfalət içərisində məhv olacaqdılar. Belə bir şəraitdə böyük Heydər Əliyevin dövlətçilik təcrübəsi Naxçıvanı xilas etdi. Qonşu Türkiyə ilə aparılan danışıqlar, imzalanan müqavilələr, Azərbaycan-Türkiyə sərhəddində Dilucu və Sədərək sərhəd keçid məntəqələrini birləşdirən "Ümid" körpüsünün açılması naxçıvanlıların ağır blokadadan xilası ilə bərabər, həm də Azərbaycan-Türkiyə münasibətlərinin hələ SSRİ köləliyindən tamamilə qurtula bilməyən ölkəmizdə canlanması ilə müşahidə olundu. Bunun ozamankı ölkə rəhbərləri tərəfindən heç də yaxşı qarşılanmamasına əhəmiyyət verməyərək ulu öndərimiz bir neçə dəfə Türkiyədə olmuş və qonşu dövlətin prezidenti və yüksəkvəzifəli məmurları ilə həm orada, həm də Naxçıvanda görüşərək dostluq və qardaşlıq münasibətlərinin yeni mərhələdə inkişafına start vermişdir.

Ulu öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsi əsasında müasir dövrdə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi Azərbaycan dövlətinin xarici siyasətinin çox mühüm tərkib hissəsidir. Tarixi köklərə və qardaşlığa söykənən, hər zaman həmrəylik nümayiş etdirən Azərbaycan və Türkiyə arasında əlaqələr siyasi, iqtisadi-ticari, humanitar, hərbi və s. sahələrdə çox uğurla inkişaf etməkdədir. İki dövlətin rəhbərlərinin müntəzəm xarakter almış qarşılıqlı səfərləri ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynayır və müsbət nəticələr verir.

Qonşu dövlətin inkişaf və uğurlarından danışan dövlətimizin başçısı deyir: Əziz Qardaşımın liderliyi sayəsində Türkiyə son illər böyük uğurlu yol keçib, dünya çapında güc mərkəzinə çevrilib. Türkiyədəki sabitlik, inkişaf göz qabağındadır. Bu gün dünyanın bir çox ölkələrində böhran yaşanır, ölkələr idarəolunmaz vəziyyətə düşür, iqtisadi çətinliklər, sıxıntılar insanların haqlı etirazına səbəb olur. Türkiyə isə inamla irəliləyir, nəhəng layihələr gerçəkləşdirir, bölgədə söz sahibidir, dünyada önəmli güc mərkəzidir. Hər kəs bununla hesablaşmalıdır və hər kəs bilməlidir ki, bu uğurların səbəbkarı mənim qardaşım Rəcəb Tayyib Ərdoğandır. Azərbaycanda Tayyib bəyə çox böyük hörmət, məhəbbət vardır və bunu Azərbaycana gələn hər bir insan görür.

Bu gün Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təntənəsidir,- deyən Prezident cənab İlham Əliyev Türkiyə kimi qüdrətli ölkənin qardaşımız olmağını böyük xoşbəxtlik hesab edir: İkinci Qarabağ savaşı, savaşdan sonrakı dövr bu birliyi daha da gücləndirdi. Keçən il biz Şuşada Şuşa Bəyannaməsini imzaladıq və Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldu.






TƏHLİL • YANAŞMA

Bütün sahələrdə müttəfiq oldu və bu, həm xalqlarımıza ciddi gözaydınlığıdır, eyni zamanda, bölgəyə və dünyaya ciddi mesajdır. Çünki Türkiyə-Azərbaycan birliyi bölgədə çox önəmli bir amildir. Bu, sülh, sabitlik amilidir. Ancaq, eyni zamanda, əgər kimsə yenə də bizə qarşı ədalətsiz hərəkət etmək istəsə, əlbəttə ki, bu amili ciddi nəzərə almalıdır.

İkinci Qarabağ savaşından sonra Türkiyə-Azərbaycan qardaşlığı, birliyi daha da yüksək pilləyə qalxıb. Yəqin siz də görürsünüz ki, hər yerdə Azərbaycan və Türkiyə bayraqları bir yerdə dalğalanır. Bu,



ürəkdən gələn duyğulardır, bu, əcdadlarımızdan qalan mirasdır, onların vəsiyyətidir və bu, zəmanəmizin tələbidir... Bundan sonra bölgədə gedən işlər, əlbəttə ki, Türkiyə və Azərbaycanın fəal iştirakı və izni ilə aparılacaq. İstər siyasi təşəbbüslər, iqtisadiyyat, enerji, nəqliyyat - bütün bu sahələrdə bizim işbirliyimiz artıq regional çərçivədən çıxıb, beynəlxalq səviyyəyə qalxıbdır.

Bəli, bu gün bütün dünya iki dövlətdə yaşayan bir millətin tək



yumruqda birləşdiyinin şahididir. O yumruq ki, təməli ulu öndərimiz tərəfindən qoyulmuşdu və onun bir yumruq olmasında 30 illik əmək, zəhmət var.

## Türk dünyası böyük bir ailədir

Dövlətimizin başçısının Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündəki çıxışında vurğuladığı kimi, türk dünyası 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edir və böyük iqtisadi potensiala, enerji resurslarına, nəqliyyat yollarına və müasir hərbi imkanlara malikdir.

Türk dünyasını böyük bir ailə adlandıran cənab İlham Əliyev qeyd edir: Bir-birimizin milli maraqlarını nəzərə alaraq bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməliyik. Siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığımızı fəallaşdırmalıyıq.

Çıxışda maraq doğuran hissələrdən biri də Prezidentin Azərbaycan xalqının Qarabağın və Şərqi Zəngəzurun Ermənistan işğalından azad olunmasının ikinci ildönümünü böyük qürur hissi ilə qeyd etdiyini, bununla Azərbaycanın həm də BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini özünün icra etdiyini vurğulaması idi.

Otuzillik işğal bitsə də, onun ağır fəsadlarının hələ də qaldığını vurğulayan dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq işlərinin aparıldığını, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün "Böyük Qayıdış" proqramının icrasına başlanıldığını, bu prosesdə Türkiyə şirkətlərinin podratçı kimi bir çox infrastruktur layihələrində fəal iştirak etdiklərini, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın azad edilmiş torpaqlara üç dəfə səfər etdiyini, Şuşada, Füzulidə, Zəngilanda və Cəbrayılda olduğunu vurğulaması, quruculuq işlərində Özbəkistan və Qazaxıstanın da iştirak etdikləri üçün dövlət başçılarına minnətdarlıq etməsi və türk dövlətlərinin başçılarını da Qarabağa və Şərqi Zəngəzura dəvət etməsi türk dünyasının bir olmasına, həmrəylik nümayiş etdirməsinə çağırış, böyük məna kəsb edən addım idi.

Çıxışında İkinci Qarabağ müharibəsinin nəticələrinin bölgə üçün yeni imkanlar açdığını vurğulayan dövlətimizin başçısı Azərbaycanın Zəngəzur dəhlizinin yaradılmasını fəal şəkildə təşviq etdiyini və dəhlizlə bağlı öz ərazisində



genişmiqyaslı fəaliyyət həyata keçirdiyini bildirmiş və demişdir ki, Zəngəzur dəhlizinin açılmasından bütün region ölkələri faydalanacaq.

Zəngəzur dəhlizinin əhəmiyyəti barədə Azərbaycana səfəri zamanı



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan isə fikirlərini belə ifadə etmişdir: Naxçıvanı Azərbaycanın qərb rayonları ilə birləşdirəcək Zəngəzur dəhlizi ilə bağlı bəzi dairələrdəki qorxu və narahatlıq mənə görə reallıqdan uzaqdır. Yəni, artıq bütün Qarabağla bağlı atılan bu addımlardan sonra belə bir qorxuya ehtiyac yoxdur. Azərbaycan əmin addımlarla yoluna davam edir. Bu yol bölgənin sülh, əmin-amanlıq və sabitliyinə



töhfə verəcəyi kimi, Xəzərdən keçməklə Şərq-Qərb, Orta Dəhliz marşrutları üzərində yerləşən bütün ölkələr üçün ticarət və sərmayə imkanları təqdim edəcək.

Bəli, bəzi dairələrin Zəngəzur dəhlizinin açılması ilə bağlı narahatlıqları göz önündədir. Xüsusilə İran və Ermənistan bu məsələnin reallaşmasına əngəllər yaratmaqdadırlar. Lakin unudurlar ki, 44 gündəki dəmir yumruq artıq tək yumruğa çevrilməkdədir. Belə isə yaranacaq vəziyyəti bu gündən təsvir etmək bir o qədər də çətin deyil.

## Qardaş Yumruğu-tək yumruq-tərs şillə

Ermənistan və İranın ölkələrində tuğyan edən daxili hadisələrə başlarının qarışdığı, Zəngəzur dəhlizinin açılmasına üzdə bir, arxada başqa bir münasibətdə olan digər dairələrin də başlarının, şükürlər olsun, özlərinə qarışdığı bir vaxtda Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında böyük əhəmiyyətə malik "Qardaş Yumruğu" hərbi təlimlərinin keçirilməsi bütün bu hadisələrin fonunda Türkiyə və Azərbaycanın artıq bir millət, bir yumruq olduğunu bir daha sübut edir.

Türkiyə Ordusunun təqaüddə olan kontr-admiralı Cihad Yaycı təlimlər haqqında çox dəyərli, əhatəli fikirlərini bu şəkildə ifadə edib: "Şuşa bəyannaməsinə görə, Azərbaycan və Türkiyəyə kənardan hərbi müdaxilə olarsa, tərəflər bir yumruq kimi çıxış edəcəklər. "Qardaş Yumruğu" hərbi təlimləri çətin iqlim şəraitində iki dövlətin ordusunun necə tək yumruq olduğunu, bir-biriylə uyğun hərəkət etdiyini nümayiş etdirir. Bu dünyada az rast gəlinən, hətta mən deyərdim, heç rast gəlinməyən hadisədir...

Təlimlər həm də düşmənlərə ciddi mesajdır. Dostlar isə buna sevinə bilərlər. Əlbəttə, digər ölkələrin ordusu ilə bu cür təlimlər həyata keçirsəniz, uyğunsuzluqlar müşahidə oluna bilər. Ancaq Azərbaycan və Türkiyə orduları iki ölkənin vahid ordusu kimi çıxış edir. Bu möhtəşəm hadisədir. İki ölkə bir-birilə sıx bağlıdır və özünü müdafiə etməkdə qərarlıdır. Bir sözlə, bu təlim dosta güvən vermiş, düşmənin canına isə qorxu salmışdır. İnşallah, bizim təlimlərimiz digər türk dövlətləri üçün nümunə olar. Onlar da bu təlimin çətiri altında toplanarlar. Ümid edirik ki, bütün türk dövlətləri tək yumruq olacaq".

Bəli, bu təlimi Azərbaycan-Türkiyə münasibətlərinin uğurlu olduğu 2022-ci ilin son akkordları kimi dəyərləndirmək olar. Uğur akkordu olan bu təlim əslində, bəli, bir mesaj idi: iki dövlətin tək yumruq olması, bu yumruqda birləşmək istəyənlərə çağırış mesajı- böyük Türk dünyasının birləşməsi mesajı. Elə buna görə də bəziləri üçün də tərs şillə effektində oldu. Elə bir şillə ki, bu barədə düşündükcə sifətlərinə ard-arda çırpılacaq. Qoy çırpılsın, birləşməklə gücünün nəyə qadir olduğunu bilib əsrlərlə əngəllədikləri Türk birliyinin gücünü görməyin vaxtını zaman özü gətirib çıxarıb.

***Mətanət Məmmədova***



# Ya şərtlərlə razılaşmaq, ya da Bakının güc yolu tətbiqi!



SİYASİ RAKURS ÖZƏL

### Hikmət Hacıyev: "Ermənistan tərəfinin qəsdən sülh müqaviləsi üzrə danışıqları pozmaq və yalnız danışıqlar imitasiyası yaratmaq niyyətini göstərir"

Beləliklə, Ermənistan rəhbərliyi son davranışları ilə növbəti dəfə dolayısı ilə etiraf etdilər ki, onların Azərbaycanla sülh razılaşmasını imzalamaq maraqları yoxdur və bu reallıq özünü nəinki Nikol Paşinyan iqtidarının timsalında, eləcə də Azərbaycanın Qarabağ iqtisadi rayonunda Rusiya sülhməramlı kontingentinin (RSK) müvəqqəti yerləşdiyi ərazilərindəki separatçı tör-töküntülərinin fəaliyyətlərindən də açıq-aydın görünməkdədir. Mövcud vəziyyətin analizini apararkən, eləcə də nəticələrin proqnozlarını müəyyən edərkən bir neçə cəhətdən bənzər nəticələrə gəlmək mümkündür.

### Armen Qriqoryanın nağılları keçərli deyil

Elə isə gəlin məsələyə bir neçə aspektdən yanaşaq. Belə ki, Ermənistanın təhlükəsizlik şurasının katibi Armen Qriqoryan jurnalistlərə verdiyi müsahibəsində sülh razılaşmasının 2 mətninin olduğunu bildirib. Onlardan biri Bakı, digərinin isə Moskva tərəfindən İrəvana təqdim edildiyi qeyd olunur. Bakının təqdim etdiyi mətndə ərazi bütövlüklərinin qarşılıqlı olaraq tanınması, İrəvanın isə bundan sonra heç vaxt ərazi iddiaları irəli sürməməsi xüsusi olaraq vurğulanır. Moskvanın təklifi isə RSK-nın müvəqqəti yerləşdiyi Qarabağ regionundakı vəziyyəti dondurmaqdan ibarətdir. Söz yox ki, belə bir təklif Azərbaycan tərəfindən əsla qəbuledilməzdir və fakt ondadır ki, istənilən dondurulumş məsələ nəticə etibarı ilə növbəti hərbi əməliyyatlara gətirib-çıxarır. Təbii ki, Moskva da bunu çox gözəl anlayırlar və eyni zamanda, o da sirr deyil ki, hazırda Ermənistanda mövcud olan Rusiya həmin mövcudluğunu Azərbaycanda da davamlı olaraq, yəni məsələni dondurmaq yolu ilə reallaşdırmağa cəhd edir.

### Bakı Moskvanın Qarabağı Abxaziyaya, yaxud Cənubi Osetiyaya döndərilməsinə heç vaxt izn verməyəcək

Belə olan halda isə RSK ilə separatçıların gizli, ya da açıq əməkdaşlıqları nəinki çiçəklənəcək, həm də Bakı ilə Moskvanın münasibətlərinə ciddi xələllər vuracaq. Nəzərə alsaq ki, Azərbaycan RSK-ya rəsmi mandat verməyib, eləcə də son vaxtlar RSK-nın yerləşdiyi ərazilərdə haqlı irad və tələblərini irəli sürür, təzyiqlərini artırır, bu zaman əminliklə nəticə hasil edə bilərik ki, rəsmi Bakı Moskvanın Qarabağı Abxaziyaya, yaxud Cənubi Osetiyaya döndərilməsinə heç vaxt izn verməyəcək. O da məlumdur ki, RSK-nın Qarabağda uzun müddətli qalması üçün separatçılarla yanaşı, İrəvan da Moskvaya yeni qeyri-rəsmi müraciət ünvanlayıb. Həmin müraciətdə Qarabağda müvəqqəti yerləşmiş RSK təmsilçilərinin ailələrinin də bu ərazilərə gətirilməsi istənilir. Yəni onlar bu addımları ilə kontingentin Azərbaycan ərazilərində uzunmüddətli qalmasına, işğal faktının isə davam etməsinə cəhd göstərirlər. O cümlədən, cinayətkar rejimin rəhbərliyi onlara qarşı hər hansı hərbi əməliyyatlar başlayarsa bu zaman həmin əməliyyatların RSK-ya qarşı da aparılması barədə hay-küy salmağa başlayacaqlar.

### Hikmət Hacıyevə görə, Azərbaycan Qarabağda yaşayan erməni əhalisinin hüquq və təhlükəsizliyi məsələsini heç bir beynəlxalq tərəfdaşla müzakirə etməyəcək

Bu arada, daha bir amili də xatırlatmaq yerinə düşərdi. Armen Qriqoryan jurnalistlərlə söhbətində yalan uyduraraq bildirib ki, guya erməni tərəfi Qarabağ ermənilərinin hüquq və təhlükəsizliklərinin təminatı üçün Azərbaycanla birgə beynəlxalq mexanizmlərin yaradılması barədə ümumi razılıq əldə ediblər və s.

Lakin Qriqoryanın yalanı ayaq tutsa da yeriməyib. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev bəyan edib ki, Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi barədə beynəlxalq mexanizmlərin yaradılması haqqında razılığın əldə olunması yalandır. Onun sözlərinə görə, Azərbaycan Qarabağda yaşayan erməni əhalisinin hüquq və təhlükəsizliyi məsələsini heç bir beynəlxalq tərəfdaşla müzakirə etməyəcək. "Ermənistan tərəfinin qəsdən sülh müqaviləsi üzrə danışıqları pozmaq və yalnız danışıqlar imitasiyası yaratmaq niyyətini göstərir", deyə qeyd edən Hacıyev İrəvana tövsiyə edib ki, destruktiv əməllərini icra etməkdənsə regionda sülhün əldə olunması istiqamətində addımlar atsın: "Ermənistan tərəfinə bu kimi destruktiv siyasətindən əl çəkməyi, regionda davamlı sülhün və təhlükəsizliyin təmin olunması üçün siyasi iradə nümayiş etdirərək sülh müqaviləsi üzrə danışıqlarda ciddi surətdə iştirak etməyi tövsiyə edirik".

Nəticədə erməni tərəfinin (istər rəsmi İrəvanın, istərsə də Qarabağdakı separatçıların) yeganə çıxış yolları var - ya Bakının üçtərəfli bəyanata əsaslanan tələblərini qeyd-şərtsiz icra etmək, ya da Bakının güc yolu tətbiq etməkdən başqa yolu qalmır. Seçim erməni tərəfinindir...

**Rövşən RƏSULOV**

# Stanislav Tarasov: "Ermənilər nə qədər müqavimət göstərsələr də, sülh müqaviləsi imzalanacaq..."

***Rusiyalı politoloq, Yaxın Şərq və Qafqaz problemləri üzrə ekspert Stanislav Tarasov "Caliber.Az"-a müsahibəsində Ermənistan-Azərbaycan sülh prosesi haqda fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.***



*- Stanislav Nikolayeviç, Qarabağda müvəqqəti dislokasiya olunmuş Rusiya sülhməramlı kontingentinin hərbi qulluqçuları azərbaycanlı mütəxəssislərin və KİV nümayəndələrinin Azərbaycan ərazisində fəaliyyətinə niyə mane olurlar?*

- Məncə, bu, texniki məsələdir. Düşünürəm ki, Rusiya sülhməramlıları yalnız onlara məlum olan müxtəlif amilləri əsas götürərək Azərbaycan və Ermənistan vətəndaşlarını Qarabağa buraxa da, verməyə də bilər. Ona görə də təkcə bu faktdan ciddi nəticə çıxarmağı öhdəmə götürməzdim.

*- Belə olan halda izah edin ki, iranlı diversantlar Azərbaycanın Qarabağ bölgəsi ərazisinə necə daxil olurlar? Bəlkə problem Rusiya sülhməramlı kontingentinin öz vəzifələrinin öhdəsindən gəlməməsindədir?*

- Bu faktla bağlı Rusiya sülhməramlılarından heç bir rəsmi təsdiqimiz yoxdur. Ola bilər ki, bunlar sadəcə saxtadır.

*- Erməni terrorçularının rus generalı Volkova qarşı hədələrini də saxta hesab edirsiniz?*

- Məncə, saxtadır. Ona görə də bu məsələyə münasibət bildirməyəcəyəm.

*- Aİ-nin Ermənistan ərazisində monitorinq missiyasının müddətinin uzadılması ilə bağlı Fransa Xarici İşlər Nazirliyindən İrəvanın aldığı təklifə Rusiya tərəfi reaksiya verəcəkmi?*

- Əgər Ermənistan tərəfi Aİ-nin öz ərazisindəki missiyasının uzadılmasına razıdırsa, deməli bu, yalnız Ermənistan üçün problemdir. Bu sualı eyni vaxtda 3 məkanda- Brüsseldə, Moskvada və Parisdə oynamağa çalışan Ermənistan tərəfinə ünvanlamaq lazımdır. Düşünürəm ki, bu cür multi-hərəkət nəticəsində İrəvan heç bir fayda görməyəcək.

*- Yəni Ermənistanın siyasəti uduzur? Belə olan halda, erməni mətbuatına müsahibəsində Azərbaycanın böyük diplomatiyasını itirdiyini bildirməklə nəyi nəzərdə tutduğunuzu izah edin? Məhz belə demişdiniz...*

- Mən demək istəyirdim ki, ermənilər hələ də danışıqlar prosesini uzatmağa nail olurlar. Və bunun nəticəsində Bakının hərbi qələbəsini sülh müqaviləsinə çevirməyə vaxtı yoxdur. Bu, erməni tərəfinin taktiki qələbəsini göstərir.

*- Azərbaycanla danışıqları uzatmaqla Ermənistan ilk növbədə özünə zərər vurur və siz bunu əlbəttə ki, başa düşürsünüz. Bundan əlavə, siz indicə İrəvanın çoxsaylı gedişlərini qeyd etməklə bu faktı təsdiqlədiniz. Mənə deyin, Ermənistan kimin brifinqinə tabedir - Moskva, Paris, yoxsa Brüssel?*

- Rusiya üçtərəfli bəyanatların icrasına çağırır, Ermənistan isə nə edəcəyinə özü qərar verir. İstəyib-istəməməyimiz başqa məsələdir. Bakının xoşuna gəlmir. Moskva isə, hələlik, neytral şəkildə izləyir.

*- Sizcə, Moskvanın neytral mövqeyi Bakı ilə İrəvan arasında sülh müqaviləsinin imzalanmasını gecikdirəcəkmi?*

- Bu çox maraqlı sualdır. Hələlik, ermənilərin buna müqavimət göstərdiyi göz qabağındadır. Buna baxmayaraq, gec-tez hələ də sülh müqaviləsi imzalanacaq. Amma dəqiq nə vaxt demək çətindir.

*- Və nəhayət. 2025-ci ildə Rusiya sülhməramlı kontingentinin Qarabağdan çıxarılması ilə bağlı proqnozunuz necə olacaq?*

- Bu ilin sonuna qədər nə baş verə biləcəyini heç kim dəqiq bilmir. Və 2025-ci il hələ çox uzaqdadır. Bu sualı proqnozlaşdırmaq, məncə, tezdir.

**Tərcümə - Elçin Bayramlı**

TƏHLİL / VİDEO

*Bu gün Avrasiyada tarixi anlar yaşanır. Öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etmiş Azərbaycanın strateji təşəbbüsləri ilə Asiyadan Avropaya doğru geniş bir coğrafiyada yeni əməkdaşlıq imkanları formalaşır. Azərbaycanın müəllifi olduğu yeni geostrateji reallıqlar regionda bütün xalqlar və dövlətlər üçün mühüm dividendlər, yaxşı perspektivlər vəd edir. Sadəcə olaraq, bu imkanlardan yararlanmaq üçün konstruktiv mövqe, rasional yanaşma və praqmatik davranış ortaya qoymaq lazımdır. Amma biz hazırda bunu bütün region dövlətlərinin timsalında müşahidə etmirik.*




# Tehran niyə narahatdır?

Çox uzağa getməyək: elə İran İslam Respublikasından duyulan siyasi səslər - müxtəlif açıqlamalar, bəyanatlar qonşu ölkədəki rəsmi dairələrin Azərbaycanın tarixi qələbəsindən, postkonflikt dövrünün reallıqlarından narahat olduğunu göstərir. Amma İranın siyasi isterika vəziyyəti anlaşılan deyil.

Sual olunur: 30 ilə yaxın müddət ərzində Azərbaycanın torpaqlarının işğal altında olmasından, xalqımızın tarixi, dini və mədəni dəyərlərinin erməni vandalizminin təcavüzünə məruz qalmasından narahatlıq keçirməyən bu dövlətin indiki həyəcanı nədən qaynaqlanır? Yaxud məgər regionda yeni etimad mühitinin yaranması, çoxtərəfli əməkdaşlıq imkanlarının genişlənməsi Tehranı qane etmir?

Görünən odur ki, İran özünü siyasi qeyri-müəyyənlik şəraitində hiss edir, rasional qərar verə və praqmatik addım ata bilmir. Bu isə yeni geosiyasi konfiqurasiyadan kənarda qalaraq bölgədə siyasi autsayder vəziyyətinə düşmək deməkdir.

Respublikamız qonşu İranla dostluq münasibətlərinin tarixi ənənələr və siyasi-mənəvi dəyərlər əsasında, qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq çərçivəsində inkişafının tərəfdarı olduğunu dəfələrlə ifadə edib. Azərbaycan daim xoş niyyət göstərib, dostluq əlini uzadıb, siyasi jestlərlə etimad mühitinin dərinləşməsinə töhfə verib. Amma bu gün ölkəmizə qarşı hansısa ittihamlar səslənir, absurd - mənasız iddiaların ictimai rəyə sırınması cəhdləri müşahidə olunur.

Bir müddət əvvəl İranın hansısa əyalət mollasının Azərbaycana qarşı iftiralar səsləndirməsi siyasi acizliyin və miskinliyin pik həddi idi. Əyalət mollasını ölkənin danışan dilinə çevirmək isə heç də dövlətçilik ənənələrindən, diplomatiyadan və böyük siyasətdən xəbər vermir. Maraqlı və paradoksaldır: özünü regional güc mərkəzi adlandıran bir dövlətin informasiya - diplomatiya kanalı siyasi moizələr səviyyəsində fəaliyyət göstərir?!

Təbii ki, Tehranın qeyri-adekvat mövqeyi regionda reallıqları dəyişə, geoiqtisadi və geosiyasi proseslərə yön verə bilməz. Hazırda bölgədə real praktiki əməkdaşlıq çərçivələri müəyyən olunur. Təhlükəsizlik və əməkdaşlıq şəraitində kommunikasiya xətlərinin bərpası, Zəngəzur dəhlizinin reallaşması və digər işbirliyi layihələrinin reallaşdırılması bölgənin geostrateji gələcəyinin inşasıdır. Ən əsası, Azərbaycanın razılığı olmadan bölgədə hər hansı bir təşəbbüs gerçəkləşə bilməz.

Rifah və inkişaf tərəfdarı olan dövlətlərin seçimi bəllidir. İranın isə taleyi öz seçimlərindən asılıdır... doğru və ya yanlış!

# "Volkov öz vəzifəsindən sui-istifadə edir"





**POLİTOLOQ AYDINLIQ VERDİ**

***"Rusiya sülhməramlıları 2020-ci il 10 noyabr üçtərəfli bəyannamə əsasında Azərbaycanla-Ermənistan sərhəddi arasına yerləşdirilib. Artıq 2, il 2aydır ki bu qüvvələr oradadır. Bu qüvvələr ora yerləşəndən sonra daim biz müşahidə edirik ki, onlar Qarabağda yaşayan speratçı ermənilərə dəstək olurlar və kömək edirlər". Bu sözləri SİA-ya açıqlamasında politoloq Elşad Həsənov deyib.***

Onun sözlərinə görə, bizim müvafiq qurumların dəqiq məlumatları var ki, onlar həmin yoldan həmin speratçıları silahlandırmaq üçün istifadə edirlər. Ora gələn silah və sursata göz yumurlar, xarici vətəndaşlar Azərbaycan dövlətinin icazə olmadan həmin sülhməramlıların vasitəsi ilə buraxılır. Anti-Azərbaycan qüvvələr ora gəlib-gedirlər. Bütün bunlarda təbii ki, Azərbaycanın müvafiq dövlət qurumlarında hiddət doğurur. Bu məsələ ilə əlaqədar dəfələrlə Azərbaycan dövləti tərəfindən Rusiya müdafiə nazirliyinə, eləcə də burada olan sülhməramlıların komandanlığına xəbərdarlıq, məlumatlar vermişik. Onlar dəfələrlə bunu pozurlar. Bu haqda artıq ölkə rəhbərliyi Rusiya rəhbərliyinə məlumat verib. Sülhməramlıların üzə-




rinə götürdükləri öhdəlikləri yerinə yetirməyə tələb olunub. Bu günlərdə bir qrup jurnalistimizin Azərbaycan müvafiq orqanlarının nümayəndələri, oradakı ərazilərimizə səfər etmişlər. Bu səfərində əsas məqsədi orada olan ermənilərin qeyri-qanuni qazıntılar apararaq orada olan təbii sərvətlərimizin daşınmasını dünyaya göstərmək idi. Bunada oradakı dırnaq arası "sülhməramlılar" göz yumur. Bu göz yummaq mən deyim ki, elə belə də deyil. Artıq Rusiya mətbuatında da məlumat yayıldı ki, Qarabağa gələn yeni dövlət naziri təyin olunan Vardaryan, Rusiyadan olan milyarder həmin sülhməramlıların komandanı general-mayor Volkova böyük mənzil bağışlayıb, ona böyük hədiyyələr verib. Yəni Volkovu bunlar maliyyələşdirirlər. Volkovda öz vəzifəsindən sui-istifadə edərək, belə işlər görürlər. Bu haqda biz lazimi tədbirlər görülməsi üçün Rusiyanın xarici işlər nazirliyinə, müdafiə nazirliyinə və prezidentə müvafiq məlumatlar vermişik. Bu sülhməramlıların orada qalması 5 il müddətinədir. Bildiyiniz kimi, Azərbaycan tərəfi bildirmişdir ki, bu 5 il bitdikdən sonra onlar burada qalmayacaqlar. Ona qədər biz Ermənistanla sülh müqaviləsi bağlayacayıq və həmin sülhməramlıların qalmasına ehtiyac qalmayacaq. Güman edirəm ki, ən uzağı 2il yarıma Azərbaycan bölgəsindən çıxarılacaq".





***Ziya Hikmət oğlu***

# 2023-cü ilin qış dəbi necə olacaq?

ARAŞDIRMA

**_Dəb bəzi insanların həyatında çox önəmli rol oynasa da, bəziləri üçün də əhəmiyyətsiz bir şeydir. Bu bəziləri üçün dəb son ilin trendləri, yerdə qalanlar üçün isə özünə yaraşanı geyinməkdir. 2023-cü ilin qış dəbi və həyatımıza daxil olacaq təzə trendlər haqqında isə təəccüblənməmək mümkün deyil. SİA mövzu ilə bağlı araşdırma aparıb._**

### Kovboy çəkmə








Əfsanəvi kovboy çəkməsi günümüzün ən böyük hitlərindən birinə çevrilib. O qədər ki, 2022-2023 mövsümünün ən diqqət çəkən modellərindən biri kovboy çəkmələridir. Bu çəkmələr xüsusilə naxışlı modelləri ilə seçilir.

### Bəbir naxışı

Bəbir naxışının tarixinə nəzər salsaq görərik ki, bu, bütün zamanların ən görkəmli tendensiyalarından biridir.

### Transparan detallar

Transparan görünüşlər bu ilin trendləri arasındadır. Dərinizi göstərmədən də qəşəng ola biləcəyinizi bildirən şəffaf dizaynları qarderobunuza daxil etməyi unutmayın.

### Tvid parça

Fransız moda markası ilə eyniləşdirilən



tvid parçanı pencəklərdə görməyə çox öyrəşmişik. Yeni forması ilə trendə daxil olan parça gödəkçə və paltar modelləri ilə podiumlarda diqqət çəkir.

### Bəyaz

Bu mövsüm qış mövsümündə açıq rənglərə qarşı qərəzi qırırıq. Qışın tutqun havasının mənfi enerjisini ağ paltarlarla dağıtmalıyıq.

### Trençkotlar

Payızın gəlişi trençkot modellərinin vitrinlərdə öz yerini tutması deməkdir. Klassik model trençkot modelləri hər il olduğu kimi bu il də zirvədə qalır. Üstəlik, bu il fərqli modelləri ilə daha dəbdədir. Əgər payız üçün klassik və zamansız bir parçaya sərmayə qoymağı düşünənlərdənsinizsə, sizə keyfiyyətli trençkota şans verməzinizi tövsiyə edirik.

### Klassika

Parlaq detallı mini axşam paltarları parlaq tədbirlərdə ən böyük xilaskarınız olacaq.

2000-ci illərin təsiri davam edir

Ötən dövrün ən məşhur markalarından olan "Miu Miu" bu il də aşağı bel trendini davam etdirir. Qış havasını hiss etdirən şəffaf detalları və tüklü detalları olan koftalar bu mövsümdə tələbatdır.

### Rənglənmə zamanıdır

Keçid mövsümlərində qarderobun vazkeçilməz hissəsi olan dəri gödəkçələr "Prada"da rəngi və uzunluğu ilə diqqət çəkir. Çiyin xətlərini ön plana çıxaran bu uzun dəri gödəkçə rəngi ilə gözləri üzərinizə çəkəcək.

### Yaz havası

Qış üçün əvəzolunmaz sviterlər bu mövsüm də dəbdədir. Yaz enerjisini sviterlərə daşıyan Fransız markası "Louis Vuitton" çiçək motivini ətəklərə də daşıyır.

### Qadın xətləri

"Versace" qadınlığın önə çıxdığı soyuq havaları qırmızı ilə qarşılayır. Parlaq qırmızının bütün kombinasiyada üstünlük təşkil etdiyi bu mövsüm bütün gözlər üzərinizdə olacaq.

### Üst-üstə geyinmək

Bu mövsüm üst-üstə geyinmək ön plana çıxır. Qeyri-adi görünsə də, üst-üstə düşən geyimlər mövsüm trendləri arasında öz yerini tutub.

### Sveatshirt

Gələk bütün zamanların ən azad və rahat parçasına. Sveatshirt modelləri məktəb və







universitet mövsümünün açılışı ilə bir daha trendlərdə yer almağı bacardı. Üstəlik, bu mövsüm çox daha naxışlı və çox daha rəngarəng variantları ilə dəbin mərkəzində olduğunu söyləyə bilərik. Bu mövsüm qəşəng və rahat görünüşlər yaratmağı düşünürsünüzsə, mövsümün gözə çarpan modellərini incələyərək keçməməyinizi tövsiyə edirik.

### Oversize pencəklər

Oversize modasını formalaşdıran pencəklər bu mövsüm qadın kəsimli modelləri ilə diqqət çəkir.

### Qalın üst geyimi

Puffer palto günümüzün ən çox seçilən üst geyim məhsulları arasındadır. Havalar soyumağa başladıqca artıq ən klassik modelləri vitrinlərdə və ətrafımızda görməyə başlamışıq. Bütün mövsüm istifadə edə biləcəyiniz xilaskar və dəbli parça axtarırsınızsa, tək bir puffer palto ilə bütün kombinasiyalarınızı tamamlaya və gündəlik görünüşünüzə stil əlavə edə bilərsiniz.

Hər mövsüm fərqli bir retro parçanın dəbdə olduğunun şahidi oluruq. Xüsusilə üst geyim məhsullarında retro parçalar tez-tez dəb halını alır və yeni dizaynlarla vitrinlərdə öz yerini tutur. Bu mövsümün ən dəbli retro parçası şübhəsiz ki, yarışçı gödəkçə modelləridir. Rəngarəng, zolaqlı və atletik duruşu ilə seçilən bu parçaları dərhal kəşf etməyi tövsiyə edirik.

### Parıldayan köynəklər

Parıldayan parçalar qış mövsümündə də diqqətləri üzərinə çəkməyə davam edir. Bu qış mövsümündə diqqət çəkən kəsimli koftalar xüsusilə parıltılı modelləri ilə diqqət çəkir.

### Dəri modası heç bitmir

Bildiyiniz kimi, dəri parçaları qış mövsümünün ən populyar məhsulları sırasındadır. Adi qara dəri parçaları ilə yanaşı, qəhvəyi dəri parçalar bu mövsüm daha çox diqqət çəkir. Yeri gəlmişkən, maraqlananlar üçün demək istərdik ki, bu mövsümün ən çox bəyənilən parçalarından biri də boş kəsilmiş dəri şalvardır.

***Ayşən Vəli***

# Makron Fransasının daşıyacağı ağır və çıxılmaz məsuliyyət



## AzTV-yə təklif var!












### Separatçı və hərbi cinayətkar Araik Arutyunyanın Fransada bəh-bəhlə qarşılanması hansı nəticələrə gətirib-çıxara bilər?

Qarabağda qalan separatçı törtöküntülərinin özlərini siyasi məhvə doğru aparmaq cəhdləri davam edir. Bu dəfə qondarma "dqr"in saxta "prezidenti" Araik Arutyunyanın Fransadakı sərgüzəştləri diqqət çəkib. Daha dəqiq desək, Fransanın açıq-aşkar ermənipərəstlik mövqeyi növbəti dəfə Araikin simaSIZlığında özünü sübuta yetirib.

Bəri başdan qeyd edək ki, artıq Fransa və bu ölkənin Makron iqtidarı vasitəçilik missiyasından rədd edilməsi ilə yanaşı, Fransanın Qafqazda sülhün əldə olunması istiqamətində atılan addımlara maneələr törətmək cəhdləri daha da artmağa başlayıb. Məhz Arutyunyanın Fransaya etdiyi səfəri zamanı baş verənlər də bu cür nəticə hasil etməyə zəmin yaratmaqdadır.

### Misal üçün, bu gün Fransa hakimiyyəti Azərbaycan qarşısında bu suallara cavab verməlidir:

Separatçı-cinayətkar rejimin başçısı Arutyunyanın Fransa hökumətinin sahibi olduğu "France-24" telekanalına dəvət olunması və orada Azərbaycanın xəritəsinin qəsdən təhrifə məruz qoyulması, dünyanın tanımadığı "dqr" adlı saxta "dövləti" ayrıca "respublika" kimi göstərməsi Azərbaycana qarşı yalnız qərəz deyil, həm də düşmənçilik mövqeyinin nümayişi kimi qəbul edilməlidirmi? Edilməlidirsə, Fransa bunu açıq desin və siçanpişik oyunu oynamaqdan əl çəksin!

### Yaxud, Araik Arutyunyanın adıçəkilən telekanaldakı sərsəm çıxışlarını həm də Fransanın aparıcı 20 KİV-lərinin iştirakı ilə mətbuat konfransı kimi təqdim olunmasına hansı adı verək?

Üstəlik, Parisin meri Ann İdalqonun Araik Arutyunyanla görüşünü özünün tvitter səhifəsində və sözün əsl mənasında, bəh-bəhlə təqdim etməsini, digər ermənipərəst fransız siyasətçisi məlum və məşum Valeri Pekresslə dodaqdodağa öpüşməsini necə adlandıraq? Aşırı və izafi ermənipərəstlik, başqa heç nə!

### Ölkəsini ciddi siyasi-diplomatik uçuruma doğru sürükləyən Makronun yaxası onun siyasətinə qarşı çıxan ədalətli fransızların əlində qalacaq



Olan budur ki, Fransa özünün "mövqeyini" açıqlayıb və bundan sonra uğraya biləcəyi siyasi uğursuzluqlarına görə də əlbəttə ki, özü məsuliyyət daşıyacaq. Təbii ki, ölkəsini ciddi siyasi-diplomatik uçuruma doğru sürükləyən Makronun da yaxası onun siyasətinə qarşı çıxan ədalətli fransızların əlində qalacaq. Zaman hər şeyi yerli-yerində müəyyənləşdirir...

Əslində, bu xüsusda son vaxtlar dövlət siyasətimizi kifayət qədər uğurla təbliğ edən AzTV-nin ictimai-siyasi proqramları redaksiyasındakı həmkarlarımıza ediləcək kiçik bir təklifimiz də var...

### Fransadan müstəqillik tələb edən Yeni Kaledoniyanın və Korsikanın aparıcı siyasi liderləri AzTV-yə dəvət edilə bilərlərmi?

Misal üçün, nəyə görə də Fransa hökumətinə bağlı "France-24" telekanalı separatçı və hərbi cinayətkar Araik Arutyunyan üçün ölkənin 20 aparıcı KİV nümayəndələrinin iştirakı ilə Azərbaycanın ərazi bütövlüyünə qarşı ayrıca veriliş düzənləməsinə qarşı adekvat cavab verilməsin? Çünki belə addım yalnız Ermənistana, yaxud erməni işğalına və separatçılığına dəstək deyil, həm də bütövlükdə və ən əsası, dövlət səviyyəsində (!!!) anti-Azərbaycan təxribatıdır!

Təklif isə belədir - AzTV Fransadan müstəqillik tələb edən Yeni Kaledoniyanın və Korsikanın aparıcı siyasi liderlərini rəsmi qaydada proqramlara dəvət etməklə, yaxud onlarla canlı bağlantılar qurmaqla tələblərini ictimailəşdirə, fikirlərini dinləyə bilər.

Fransa hakimiyyətinin korsikalıların və yeni kaledoniyalıların azadlıq hüquqlarına qarşı tətbiq etdiyi diktatorluq siyasəti ilə bağlı kadrlar ictimailəşdirilər. Hətta Nuema şəhəri ilə Şəki şəhərini qardaşlaşması məsələsini də qabartmaq olar. Axı niyə də olmasın? Məgər anti-Azərbaycan fəaliyyəti ilə əməli fəaliyyətə keçən rəsmi Parisin gözü-qaşı bizimkindən qaradırmı?

**Rövşən RƏSULOV**

P.S. Hər halda, faktlar ortadadır və bu faktlar artdıqca fransız-erməni siyasətinin həm də mazoxizm siyasəti olması dəlili geniş mənzərədə təsəvvürlərdə görünməyə başlayır. Erməni işğalçılığı və separatçılığı bütövlükdə Ermənistanı və erməni xalqını məhvə doğru sürükləyir və həmin birgə mazoxizm siyasətinin əsas ruhvericisi isə Fransadır və gələcəkdə baş verənlərə görə də ən çox məsuliyyət daşıyan ölkələrdən biri də Makron Fransası olacaq!

# Bəşəriyyətin bəlası - “Ağ ölüm”

## *Narkomaniya ilə mübarizə sağlam həyatın təminatıdır*

***Müasir dünyamızda narkomaniya ilə mübarizə sağlam cəmiyyətin formalaşması baxımından əsas məqsəd və vəzifələrdəndir. Azərbaycanın dövlət siyasətində başlıca vəzifə olan, sağlam nəslin formalaşması istiqamətində həyata keçirilən tədbirlər sırasında mühüm istiqamət kimi diqqət yetirilən narkomaniya ilə mübarizə kampaniya xarakterli deyil, davamlı siyasətdir. Narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq bu gün dünyanı narahat edən əsas problemlərdən biridir. Onun yaratdığı problemlər cəmiyyətin maddi-texniki və intellektual potensialının aşağı düşməsinə, genefondun pisləşməsinə və bir çox mənfi hallara gətirib çıxarır. Eyni zamanda, cinayətkarlığın artmasına səbəb olan narkotiklərin qanunsuz dövriyyəsi terrorizmin maliyyə mənbəyi olmaqla beynəlxalq təhlükəsizliyə ən ciddi təhdidlərdən biridir.***







Bu baxımdan, dünya dövlətləri narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üsullarını daha da təkmilləşdirir, habelə beynəlxalq səviyyədə müvafiq nəzarət sisteminin tətbiqi sahəsində səylərini artırırlar. Ölkəmizdə də narkomaniyaya qarşı mübarizə sahəsində dövlət tərəfindən atılan addımlar öz müsbət nəticələrini verməkdədir. Bu sahədə fəaliyyət ardıcıl olaraq davam etdirilir və daha da genişləndirildirilir.

Belə ki, ”Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 26 avqust tarixli Fərmanı narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin etməkdə mühüm bir Sənəd oldu. Bu Fərman əsasında 2000-ci ilə qədərki dövr üçün narkomanlığın yayılmasına, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Ümummilli Proqram hazırlanmış, Narkomanlığa və Narkotik Vasitələrin qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmış, 18 iyun 1999-cu ildə Milli Məclis tərəfindən ”Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında” qanun qəbul olunmuşdur. Bu sənədlərin qəbulunda ümumi məqsəd Azərbaycanda narkotik tərkibli bitkilərin kultivasiyasını, narkotik vasitələrin və psixotrop maddələrin istehsalını, dərman preparatlarının və xammalın hazırlanmasını qanunla qadağan etməkdir.



Daha sonra davamlı olaraq bu sahədə tədbirlər icra olundu. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli Fərmanı ilə ”Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqramı”, 2007-ci il 28 iyun tarixli Sərəncamla ”Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqramı (2007-2012-ci illər üçün)”, 2013-cü il 24 iyun tarixli Sərəncam ilə ”Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı” təsdiq edilmiş və uğurla həyata keçirilmişdir. Dövlət orqanlarının və ictimai birliklərin fəaliyyətini əlaqələndirməkdən ibarət olan Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmış, narkotiklərin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində dövlətin strateji kursunun əsasları müəyyən edilmişdir. Respublikada narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıqla mübarizə sahəsində bir sıra təşkilati-hüquqi, institusional və əməli praktiki tədbirlər həyata keçirilmişdir. Əbəttə ki, narkotiklərlə mübarizə üzrə beynəlxalq təşəbbüslərdə iştirak daha intensiv xarakter almışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin 22 iyul 2019-cu il tarixli Sərəncamı ilə ”Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət proqramı”nın təsdiq edilməsi görülən işlərin davamıdır.

Dövlət Proqramının məqsədi respublikada narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, antinarkotik təbliğatı, ictimai maarifləndirmə işinin əhatəsinin genişləndirilməsi, müasir informasiya texnologiyalarının imkanlarından istifadə olunmaqla, narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınmasıdır. Dövlət Proqrammı çərçivəsində narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində müasir texnologiyaların və yeni üsulların tətbiqi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq təcrübədən istifadə etməklə ixtisaslaşmış seminarlar təşkil olunur.

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və onlardan sui-istifadə ilə əlaqədar mübarizə tədbirlərini daha da gücləndirmək məqsədilə aidiyyəti qurumların əməkdaşlığının möhkəmləndirilməsi və qarşılıqlı fəaliyyətinin təmin edilməsi görülən işlərin tərkibindədir.

İnsan amili dövlət siyasətinin əsasını təşkil edir. Dövlət başçısı İlham Əliyev çıxışlarında daim bildirir ki, həyata keçirilən siyasətin önündə vətəndaş amili dayanır. Əhalinin sağlamlığının yüksək səviyyədə qorunması da prioritet məsələlərdəndir. Azərbaycanın gələcəyi kimi dəyərləndirilən gənclərimizə diqqət və qayğı isə daha mühüm vəzifə kimi qeyd edilir. Gənclər arasında idmanın, mədəni-kütləvi tədbirlərin genişləndirilməsində, idmana marağın artırılması naminə inşa olunan idman komplekslərinin tikilməsində də əsas məqsədlərdən biri sağlamlığın təmin edilməsi ilə yanaşı, insanların belə ağır fəsadlar törədən vərdişlərdən uzaqlaşdırılmasına nail olmaqdır.

Əlbəttə ki, cəmiyyətdə ”ağ ölüm” kimi tanınan narkomaniya bəlası insan həyatında sağalmaz fəsadlar yaradır. Bu problemin həllinə xidmət edən mühüm addımlardan biri kimi xüsusi ilə yeniyetmə və gənclər arasında maarifləndirmə işlərinin genişləndirilməsi prioritet məsələdir. Narkotik maddələrin gənclər və yeniyetmələr arasında daha çox yayılması müşahidə olunmaqdadır. Bəşəriyyət üçün bəla olan, irqindən, yaşından, dinindən asılı olmayaraq bütün xalqları, milləti düşündürən ən ağrılı problemlərdən olan narkomaniya ilə mübarizədə hamı bilik nümayiş etdirməlidir.

**Nəzakət ƏLƏDDİNQIZI**

Təhlil

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" çərçivəsində hazırlanıb.*

# Qanun pozuntusu: Yeniyetmələrə niyə siqaret satılır?

## *Azyaşlılara siqaret satışı qanunla qadağan edilsə də, satıcılar buna məhəl qoymurlar*

ARAŞDIRMA





### Tütünçəkmə statistikası nə deyir?

Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına görə, tütünçəkmə XX əsrdə 100 milyondan artıq insanın həyatına son qoyub. Tütündən yaranan xəstəliklər hər il hər 5 milyondan artıq insanın həyatına son qoyur. Hazırda dünyada 1,5 milyarda yaxın insan tütün istehlakçısıdır. 2030-cu ilədək bu rəqəmin 2 dəfə artacağı gözlənilir. XXI əsrdə 1 milyard insanın tütündən yaranan xəstəliklərdən həyatını itirəcəyi gözlənilir.

ÜST-ün son siyahısında Azərbaycan ən çox tütün istehlak edən ölkələr arasında 85-ci, adambaşına düşən siqaretlərin sayına görə isə 22-ci yeri tutur. Təxmini hesablamalara görə, vətəndaşlarımızın hər 4 nəfərindən 1-i siqaret çəkən hesab olunur. Başqa sözlə, Azərbaycanda 2 milyondan artıq siqaret istehlakçısı olduğu güman edilir ki. Bu sıraya daxil olanların içində gənclər və yeniyetmələrin də əhəmiyyətli payı var.

### Yeniyetmələr və gənclər niyə siqaret çəkirlər?

Tütünə qarşı maarifləndirici kampaniyalar aparılsa da, respublika qanunvericiliyi tütün məmulatlarının KİV-lərdə, ictimai yerlərdə reklamını qadağan etsə də, siqaret çəkənlərin sayı azalmaq əvəzinə artır.

Rusiya, ABŞ, Çin, Yaponiya, İndoneziya, Türkiyə və Avropa Birliyi ölkələrindən fərqli olaraq, Azərbaycanda siqaret çəkənlərin tam əksəriyyətini kişilər təşkil edir. Bizdə siqaret çəkmə az qala kişilik atributu sayılır. Yeniyetmələr də bu zərərli ənənəni necə görürlərsə, elə də davam etdirirlər- ekspert deyir.

Psixoloq Nail Cəlilin fikrincə, yeniyetmələr dostlarından fərqlənməmək kimi psixodavranış motivinə malikdirlər: "Əgər yeniyetmənin dostları arasında siqaret çəkənlər çoxluq təşkil edirsə, onun buna meylinin artacağı ehtimalı yüksəkdir. Azərbaycanda yetkinlik yaşına çatan oğlanların 2/3-i siqaret çəkir. Bu səbəbdən də, əksər yeniyetmələrin ətrafında siqaret çəkənlər üstünlük təşkil edir və siqaret yalançı psixotipə çevrilir. Hətta, iş arası fasilənin "perekur" adlandırılması da buna təsir göstərir".



Psixoloqun sözlərinə görə, tütün məmulatlarının çox baha olmaması da onların satışını artıran faktorlardandır: "Buna görə də siqaret əksər gənclər üçün ucuz başa gələn hezz obyektinə çevrilib. Məncə, ölkədə siqaretlərə yüksək vergi qoyulmalıdır ki, həm xeyli insan bundan çəkinsin, həm dövlət büdcəsinə artıq vəsaitlər daxil olsun".

Böyüklər azyaşlıların siqaret çəkməsinə niyə reaksiya vermir?

Azərbaycanda 18 yaşına çatmamış vətəndaşlara siqaretin satılmaması barədə qanun qəbul olunub. Lakin, reallıqda bu qanunun tələblərinə riayət olunmur. Bu adi müşahidələr zamanı da, ictimai təşkilatların monitorinqləri zamanı da ortaya çıxır.

Hər birimiz adi müşahidələr zamanı da belə halların şahidi oluruq. Bunu satıcılara irad tutduqda və ölkə Parlamenti tərəfindən qəbul olunmuş qanunu xatırlatdıqda onlar müxtəlif bəhanələrlə vəziyyətdən çıxmağa çalışırlar. Satıcıların əksəriyyəti qeyd ediblər ki, uşaqlar siqareti adətən ataları üçün alırlar.

Adi müşahidələrimiz cəmiyyətin yaşlı təbəqəsinin də azyaşlılara və yeniyetmələrə siqaret çəkməyə görə irad tutmadıqlarını da göstərir. Hətta, hər birimiz yəqin ki azyaşlı uşaqların yaşlı kişilərdən siqaret yandırdığının və həmin yaşlının da həvəslə ona kibrit uzatdığının şahidi olmuşuq. Bundan başqa, bir çox valideynlər uşaqlarının gözü önündə siqaret çəkir və ona pis örnək olurlar. Uşaqda hələ balacalıqdan siqaretin böyüklük atributu olması fkri formalaşır. Onlar çalışırlar ki, yaşlarından böyük görünsünlər.

Sosioloq: "Yeniyetmələrin səmərəli məşğulluğunun təmin edilməsi onları zərərli vərdişlərdən yayındıra bilər"

Sağlam Cəmiyyət Hərəkatının rəhbəri Elçin Bayramlının fikrincə, valideynlər bu məsələyə ciddi diqqət verməlidirlər: "Bizim araşdırmalarımız göstərir ki, yaşı 18-ə çatmamış yeniyetmələr və gənclər arasında siqaret çəkənlərin sayının artmasının əsas səbəbləri arasında valideyn nəzarətinin zəifliyi və onların asudə vaxtının səmərəli təşkil edilməməsi dayanır.

Sosioloqun fikrincə, burada əsas faktorlardan biri də, ictimai qınaq və maarifləndirmədir: "Heç kəsə sirr deyil ki, son vaxtlar cəmiyyətdə böyük-kiçik münasibətləri pozulub, azyaşlılara maksimum sərbəstlik verilib ki, bu amillər də sözügedən problemin kəskinləşməsində öz rolunu oynayır.

İnkişaf etmiş ölkələrdən fərqli olaraq, fərqli olaraq, Azərbaycanda valideynlərin 70 faizi övladının idman seksiyası və başqa yaradıcı dərnəklərdə məşğul olmasını təşkil etmir. Buna görə də, uşaqlar özbaşına qalır, onlar böyüklərə oxşamağa çalışaraq siqaret çəkirlər".

Ekspert burada valideyn məsuliyyətsizliyinin böyük rolunun olduğunu deyir. "Maraqlıdır- məgər valideynlər uşaqlarının siqaret çəkdikləri hiss etmirlər? Axı tütün iyi 5 metrdən bilinir. Deməli, günahın çoxu valideynlərdədir"- sosioloq bildirir.

SCH sədrinin sözlərinə görə, məktəblərdə kütləvi dərnəklərin, idman spartakiadalarının, fənn olimpiadalarının daha tez-tez təşkili də yeniyetmələrin zərərli vərdişlərdən aralı durmasına stimul yarada bilər: "Valideynlər isə övladlarını nəzarətdə saxlamalı, onların zərərli vərdişlərdən uzaq olması üçün səy göstərməlidir. Belədə, sağlam cəmiyyətin formalaşmasında böyük rolumuz ola bilər".




### Elektron siqaretlər sağlamlığa zərərdirmi?

Son vaxtlar elektron siqaretlərin istifadəsi artır. Elektron siqaretdə yanma prosesi olmur və bu səbəbdən ziyanverici qazlar buraxmır. Həmçinin, onun tərkibində tənbəki yoxdur. Buna baxmayaraq, bəzi ölkələrdə elektron siqaretlər də adi siqaretlərlə eyni tutularaq, onların çəkilməsi də qadağan edilmişdir.

Elektron siqaretlər haqda yekun elmi rəy hələ ki verilməyib. Onların tam zərərsiz olduğu iddia olunur, amma bəzi mütəxəssislər tərkibində zərərli maddələr olduğunu ehtimal edirlər. Qeyd edilir ki, e-siqaretdə tapılmış nitrosamin maddəsi onun xərçəng xəstəliyi törədə bilər. Bir çoxları isə, belə məlumatların iri tütün şirkətləri tərəfindən mətbuata ötürüldüyünü düşünürlər.

Həkim Rizvan Məmmədov deyir ki, ağciyərlər üçün oksigendən başqa hər şey zərərlidir, bu cəhətdən elektron siqaretlərin də zərəri var. Lakin tütün çəkməyin yeniyetmələrin orqanizminə zərəri daha böyükdür və bir çox ağır xəstəliklərin birbaşa səbəbi tütündür: "Siqareti birdən-birə tərgitmək orqanizmdə digər xəstəliklərin baş qaldırmasına səbəb ola bilər. Ona görə də, gündə 2 ədəd siqaretdən vaz keçilməlidir. Bu təcrübəyə əməl olunsa, 1-2 aydan sonra siqareti tamamilə tərgitmək olar. Son vaxtlar təbii tərkibli müxtəlif müalicə vasitələri hazırlanıb ki, bunlar da orqanizmə zərər vermədən siqareti tərgitməyə yardımçı olur. Belə vasitələrin qiyməti o qədər də baha deyil, ən uzağı 1 aylıq siqaret xərci qədər olar".

**Lalə Mehralı**

Səs
10 dekabr
2022-ci il



# "Ronaldo əfsanədir, amma transferi mümkün deyil"

PSJ-nin prezidenti Nasser Əl-Xəlaifi Kriştiano Ronaldonu transfer edəcəkləri ilə bağlı bir müddət əvvəl yayılan xəbərlərə münasibət bildirib. Qol.az xəbər verir ki, o, "Sky Sports"a açıqlamasında deyib ki, portuqaliyalı hücumçu əfsanəvi futbolçudur, ancaq onun mövqeyində çıxış edən kifayət qədər oyunçularının olduğu üçün belə bir transfer haqda düşünmürlər: "O, əfsanədir, ulduzdur. Mən onu həm futbolçu, həm də peşəkar kimi heyranam və sevirəm. O, heyrətamiz oyunçudur. İndi 37 yaşı var və hələ də gözəl oynayır.

Hər klub onunla müqavilə imzalamaq istəyir. Bizim isə onun mövqeyində çoxlu futbolçularımız var. Düzünü desəm, bu, mümkün deyil". Xatırladaq ki, son klubu "Mançester Yunayted" olan 37 yaşlı Ronaldo ötən ay İngiltərə təmsilçisindən ayrılıb.

# Məntiq evliliyi, yoxsa sevgi?



***"Ümumiyyətlə, evlilik yaş və ailə dəyərlərinə görə dəyişir. Elə insanlar var ki, müəyyən yaşa qədər ailə qurmurlar, amma müəyyən yaş keçdikdən sonra məntiq evliliyi edirlər". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Vüsalə Əmiraslanova deyib.***

Onun sözlərinə görə, bu, insanın yenə də düşüncəsinə bağlı bir şeydir. Elə insanlar var ki, evliliyin maddi tərəfini düşünərək ailə qurur, elə insanlar da var ki, sevgini üstün tutaraq ailə həyatı qururlar. Bu da, əsasən, xarakterə bağlı bir şeydir. Həmçinin böyüdükləri ailədən də çox şey asılıdır. Məsələn, elə ailələr var ki, qohum evliliyinə üstünlük verirlər, balaca vaxtından artıq ailələr arasında sözləşmələr olur. Lakin insan artıq böyüyəndən sonra o məntiq evliliyini seçməyə məcbur olur. Amma elə ailələr də var ki, demokratik ailələr olur və qohum evliliyi o qədər də önəm daşımır və seçim verirlər övladlarına ki, kiminlə istəsən ailə qura bilərsən. Bunun da mənəvi tərəfi daha çox üstünlük daşıyır və bu ailədə sevgi daha çox olur. Amma son zamanlarda məntiq evliliyindən daha çox, emosional bağa daha çox üstünlük verirlər. Yəni məntiq evlilikləri zaman-zaman azalmağa başlayıb. Əslində, bir psixoloq kimi deyə bilərəm ki, həm məntiq, həm də sevgi məsələləri də üstünlük daşımalıdır. Çünki hər insanı tapmaq da asan deyil. Həm ürəyinə yatan, həm dürüstlüyünə əmin olduğun insanlar indiki zamanda çox azdır. Buna görə də həm məntiqi tərəfini araşdırmaq lazımdır, həm də mənəvi tərəfini araşdırmaq lazımdır. Fikirlərimi qədim yunan filosofu Sokratın sözü ilə bitirmək istəyirəm. Sokrat demişdir ki, "mütləq evlənin, yoldaşınız yaxşı olarsa xoşbəxt olarsınız, yaxşı olmasa da filosof olarsınız". Yəni, bu məsələyə bir az fərqli cür yanaşılır. Riskli bir məsələdir, lakin risksiz də həyat yoxdur".

***Ziya Hikmət oğlu***

# Ölkədə narkomaniya ilə mübarizədə hansı işlər görülür?



"Ümumiyyətlə, cəmiyyətdə narkomaniya və digər fəsadların qarşısını almaq üçün iki əsas yol var. Qədimdən bu günə qədər bu iki əsas yola istinad edilib. Bunlardan biri inzibati hüquqi yol, digəri isə qeyri-inzibati maarifləndirici yoldur". Bu sözləri S?A-ya açıqlamasında Fəlsəfə üzrə fəlsəfə doktoru, sosioloq Mail Yaqub deyib. Onun sözlərinə görə, hər iki yol işlək olmalıdır: "Hər iki vasitə vacibdir. Əgər sırf maarifləndirici tədbirlərlə kifayətlənsək, hüquqi mexanizm yaxşı işləməsə bu kifayət etməyəcək. Çünki insanlar psixoloji olaraq xarakter etibarilə yanlız güc vasitəsilə pis yoldan çəkinirlər. Onlara əxlaq dərsləri və maarifləndirici tövsiyələr təsir etmir. İnsan xarakteri ümumiyyətlə belədir.

Digər tərəfdən, hüquqi mexanizm güclü işləməli və əxlaqi-maarifləndirici tövsiyələr güclü olmalıdır. Azərbaycanda bu və digər sahələrdə hər ikisinin daha işlək olmasına ehtiyac var. Mən demirəm ki, hüquq-mühafizə orqanları narkomaniyaya qarşı mübarizə aparmırlar. Deyirəm ki, daha güclü mübarizə aparılmalıdır".

Mail Yaqub sözlərinə belə davam edib: "Maariflədirmə sahəsində isə çox zəifik. Azərbaycanda mənəvi və intellektual maarifləndirmə sahəsində çox axsayırıq. Buna misal olaraq verlişləri, internet məkanını və televiziyanı misal göstərmək olar. Mənə televiziyada nə qədər maarifləndirici veriliş adı çəkə bilərsiniz? Bu, çox azdır, hətta yox dərəcəsindədir. Bəli, dini maarifləndirmə sahəsində çox dəyərli alimlərimiz var və onların geniş auditoriyası mövcuddur. Amma yenə də azdır. Televiziyada bu çox təbliğ olunmalıdır. Bütün bunlardan sonra yenə də narkomaniya və narkoman fenomeni olacaq. Amma heç olmasa bu addımlarla bunu azalda bilərik".

***Ayşən Vəli***

# Qrip daha çox kimlər üçün təhlükə yaradır?

***"Qrip elə bir xəstəlikdir ki, bütün yaş qruplarında rast gəlinir və ona yoluxmaq insanın həyat tərzindən asılıdır. Təmasların sayı çox olarsa, yoluxma ehtimalı da yüksək olur". SİA xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, həkim-infeksionist Təyyar Eyvazov bildirib.***

Onun sözlərinə görə, risk qrupuna uşaqlar və qocalar, hamilə qadınlar, tibb işçiləri, məktəbəqədər tədris müəssisələrində xidmət göstərən heyət, həmçinin daxili orqanların xroniki xəstəlikləri və yaşından asılı olmayaraq immun çatışmazlığı olan şəxslər daxildir:

"Səhiyyə, təhsil, ictimai nəqliyyat və ictimai xidmət işçilərinin də yoluxma riski yüksəkdir. Ümumiyyətlə, qripin fəsadları iki qrupa bölünür. Birinci qrupa aid fəsadlar bilavasitə qri-



pin gedişi ilə əlaqədar olur. Buraya hemorragik ödemi, meningit, meningoensefalit, toksik şok aiddir. İkinci qrup ağırlaşmalar isə xəstəliyin sonrakı 4-5-ci günündə meydana çıxır və adətən bakterial infeksiyanın qoşulması ilə əlaqədar olur. Ən təhlükəli və tez-tez baş verən ağırlaşma pnevmoniyadır. Pnevmoniya həm ilkin olaraq, həm də yuxarı tənəffüs yollarının virus infeksiyalarından sonra da inkişaf edə bilər. İkincili pnevmoniyaya ən çox səbəb olan bakterial infeksiyalardı (pnevmokok və stafilokok). Belə pnevmoniya xəstəliyin birinci həftəsinin sonunda - ikinci həftənin əvvəlində inkişaf edir".

"Qripin digər təhlükəli ağırlaşma kəskin respirator distres sindromudur. Bu ağırlaşmanın fonunda ciddi tənəffüs çatışmazlığı yaranır. Həmçinin qripin ağırlaşmaları otit, sinuzit, qlomerulonefrit, irinli meningit və sepsis kimi ciddi fəsadlara səbəb ola bilər", - T.Eyvazov əlavə edib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**